DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 04 (354) / APREL 2021-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV:
## ERMƏNİSTAN DÖVLƏTİ BİZƏ QARŞI MƏDƏNİ SOYQIRIMI DA TÖRƏDİB



*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 26-da Cəbrayıl və Zəngilan rayonlarına səfər çərçivəsində Zəngilan məscidində olublar.*

**Memar:** Xoş gəlmisiniz, cənab Prezident,

Prezident İlham Əliyev: Salam. Məlumat ver, hansı işlər görülür?

**Memar:** Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına uyğun olaraq, Fond tərəfindən təşkil olunan həm xarici, həm yerli ekspertlərdən ibarət olan komissiya məscidin mövcud binasını qiymətləndirmişdir. Həmçinin bir şeyi də qeyd etmək istəyirəm ki, məşhur Otelye Kummer Agentliyinin nümayəndələri buraya qısamüddətli missiya ilə gəlmişlər və mövcud binanı qiymətləndirmişlər. Hazırda bizim tərəfimizdən mövcud binanın konservasiyası və bərpası ilə bağlı təkliflər hazırlanır, o cümlədən, bu ərazidə yeni məscidin tikilməsi ilə bağlı təkliflərimizi və layihəni hazırlamışıq.

**Prezident İlham Əliyev:** Yenidən, yoxsa qiymətləndirmə nə göstərir? Daşlar belə salamat daşlardır.

**Memar:** Biz təklif edərdik ki, daha geniş ərazidə yeni məscid tikilsin. Burada ümumi ərazi 50 sota yaxındır, cənab Prezident. Bu köhnə bina konservasiya olunandan sonra həmin məscid-kompleksin içində qalsın.

**Prezident İlham Əliyev:** Baxın, ola bilər ki, əgər bu daşlar, divarlar belə sağlamdırsa, bəlkə bunun üstünü bağlamaq, onu da etmək olar. Təkliflər hazır olanda.

**Birinci xanım Mehriban Əliyeva:** Balaca məscid olub, yəqin ki, balaca da olmalıdır.

**Prezident İlham Əliyev:** Balaca, özü də birmərtəbəli olub, kümbəz o qədər də böyük olmayıb.

Birinci xanım Mehriban Əliyeva: Minarəsi də olmayıb.

**Memar:** 1988-ci ildə, sovet dönəmində həmin bina qiymətləndirilib.

**Prezident İlham Əliyev:** Şəkili olub? Yoxsa tapılmadı?

**Memar:** Sxemləri var.

**Prezident İlham Əliyev:** Sxemləri var o vaxtdan?

**Memar:** Bəli. 1988-ci ilin məlumatlarıdır.

**Prezident İlham Əliyev:** Belə olub. Faktiki olaraq bunun bir divarını və dam örtüyünü uçurublar. Üst divar qalıb.

**Birinci xanım Mehriban Əliyeva:** Onlar təkliflərdir?

Memar: İlkin təkliflərdir.

**Prezident İlham Əliyev:** Elə bu daşdan tikilib.

**Birinci xanım Mehriban Əliyeva:** Həmin daşdan, içərisi də belə olmuşdu. Təkliflərdə o əski divarlar içində qalır?

**Memar:** Bəli, kompleks kimi yaradılır.

**Prezident İlham Əliyev:** Bu divarlar içində qalır.

**Memar:** Bu, əlavə tikili idi. Sonradan tikilib, sovet dönəmində, 1930-cu illərdə.

**Prezident İlham Əliyev:** Əsas bina orada olub?

**Memar:** Bəli, burada məktəb olub, sonra təsərrüfat məqsədləri ilə o binadan istifadə ediblər.

**Prezident İlham Əliyev:** Necə olub, elə də bərpa etmək lazımdır.

davamı səh. 2

# PREZİDENT İLHAM ƏLİYEV:
## ERMƏNİSTAN DÖVLƏTİ BİZƏ QARŞI MƏDƏNİ SOYQIRIMI DA TÖRƏDİB






əvvəli səh. 1

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva üzərində "Zəngilan məscidinin təməli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 26 aprel 2021-ci il tarixində qoyulmuşdur" sözləri yazılmış xatirə daşını məscidin divarına hörüblər.

**Prezident İlham Əliyev deyib:**

- Zəngilan məscidi bərpa ediləcək. Bu məscid mənfur düşmən tərəfindən dağıdılmışdır. Müharibədən sonra Zəngilana səfər edərkən buraya da gəldim, mənzərə ilə tanış oldum və bildirdim ki, hər kəs bunu görməlidir. Bütün beynəlxalq təşkilatlar bunu görməlidir, erməni vəhşiliyini görməlidir. Bir daha demək istəyirəm ki, bu gün ermənilərə havadarlıq edənlər gəlsinlər, görsünlər, bizim məscidlərimizi nə günə qoyublar və təkcə bu məscidi deyil. Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb.

Zəngilan rayonunda yarıdağıdılmış bəzi məscidlərdən tövlə kimi istifadə olunub, orada donuz saxlanılıb. Bu videokadrlar var. Ağdam məscidində donuz saxlanılıb və bu, bütün müsəlman aləminə qarşı cinayətdir, İslam dininə qarşı cinayətdir. Bütün müsəlman dövlətləri bunu görməlidir və biz bu həqiqətləri bütün müsəlman ölkələrinin rəhbərlərinin diqqətinə çatdırırıq. Azad edilmiş torpaqlara bu gün gələn xarici qonaqlar erməni vəhşiliyini öz gözləri ilə görürlər. Bu yaxınlarda Azərbaycanda səfərdə olmuş İslam Əməkdaşlıq Təşkilatının Baş katibi öz etiraz səsini ucaltmışdır. ICESCO-nun Baş katibi azad edilmiş torpaqlarda olub, dağıdılmış Ağdam məscidini görüb və erməni vəhşiliyi haqqında artıq bütün müsəlman ölkələrini məlumatlandırır. Biz də bu işdə fəal olmalıyıq. Bütün dövlət qurumlarına göstəriş verildi, ictimai təşkilatlardan xahiş edildi ki, bütün beynəlxalq qurumlarda erməni vəhşiliyi haqqında məlumatlar verilsin - faktlarla, sübutlarla, şəkillərlə.

Ermənilər tərəfindən dağıdılmış və təhqir edilmiş bütün dini məbədlərimizin əvvəlki görüntüləri və işğaldan sonrakı görüntüləri tərtib edilir və dünya birliyinin diqqətinə çatdırılır. Bu gün ermənilərin mədəni irsi ilə əlaqədar öz narahatlığını ifadə edən bəzi xarici nümayəndələr, bax, bunu görsünlər, Zəngilan məscidinin qalıqlarını görsünlər, Şuşa məscidlərinin qalıqlarını görsünlər və görsünlər ki, Ermənistan dövləti bizə qarşı mədəni soyqırımı da törədib.

Biz isə bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik. Şuşa şəhərində artıq məscidlərin bərpasına start verilib. Ağdam Cümə məscidinin bərpası ilə əlaqədar hazırlıq işləri gedir. Bu gün Zəngilan şəhərində yerləşən məscidin yenidən bərpası, konservasiyası işlərinə start verilir.

# DQİDK SƏDRİNİN MƏQALƏSİ NÜFUZLU ALMANDİLLİ XƏBƏR PORTALINDA NƏŞR OLUNUB

Azərbaycanın dini azlıqların hüquqlarına və müxtəlif dini abidələrə bərabər şəkildə yanaşması, ümumiyyətlə, beynəlxalq hüquqa uyğun olaraq öhdəliklərə əməl etməsinə baxmayaraq, Ermənistan tərəfi və havadarları saxta məlumatlar tirajlamaqla ölkəmizə qarşı qarayaxma kampaniyasını davam etdirməkdədir.

Bu fikirlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının Türkiyənin TRT Media qurumunun Almaniyada fəaliyyət göstərən rəqəmsal platforması - https://nex24. news xəbər portalında nəşr olunan məqaləsində yer alıb.

Məqalədə qeyd olunub ki, "BBC News" 25 mart 2021-ci ildə Azərbaycanın Cəbrayıl şəhərində "Erməni kilsəsinin yoxa çıxması" mövzusunda xəbər yayıb. Ermənistan Xarici İşlər Nazirliyinin, eləcə də UNESCO üzrə Ermənistan Milli Komissiyasının Azərbaycan tərəfindən hər hansı "mədəniyyət cinayətinin" törədilməsi barədə iddiaları qəbuledilməzdir. Cəbrayıl rayonunda kilsənin "yoxa çıxması" ilə bağlı iddiaya münaqişə kontekstində yanaşılaraq nəticə çıxarılmalıdır.

İddianın saxta olduğunu faktlarla sübuta yetirən müəllif diqqətə çatdırıb ki, sözügedən "ibadətgah" Ermənistanın 30 ilə yaxın dövr ərzində Azərbaycanın suveren ərazisini işğal altında saxladığı dövrdə - beş il əvvəl azərbaycanlılara məxsus abidələrin dağıntıları üzərində qeyri-qanuni tikilib. Hətta o vaxt ATƏT-in Minsk Qrupunun həmsədrləri də Cəbrayıldakı "ibadətgah"ın hərbi birləşmənin bir hissəsi kimi erməni əsgərləri


Ein Gastbeitrag von Mubariz Gurbanli –
Vorsitzendes des staatlichen Komitees für die Arbeit mit religiösen Organisationen der Republik Aserbaidschan

*Mubariz Gurbanli*
*Vorsitzender des staatlichen Komitees für die Arbeit mit religiösen Organisationen der Republik Aserbaidschan.*

BBC News berichtete am 25. März 2021 über das „Verschwinden der armenischen Kirche" in der aserbaidschanischen Stadt Jabrayil. Die Behauptungen des Außenministeriums Armeniens und der Nationalen UNESCO-Kommission Armeniens, dass Aserbaidschan ein „Kulturverbrechen" begangen hat, sind jedoch inakzeptabel.

üçün inşa edildiyini bildirib və Azərbaycan buna dövlət səviyyəsində etiraz edib. Bu baxımdan heç bir vəchlə 5 il əvvəl işğalçı separatçılar tərəfindən şəxsi məqsədlər üçün qanunsuz inşa edilmiş bir tikili tarixi-mədəni abidə hesab oluna bilməz.

Həmçinin məqalədə Azərbaycan ordusunun şanlı qələbəsi ilə bitən Vətən müharibəsinin Ermənistanın həyata keçirdiyi vandalizmin, tarixi-dini abidələrə qarşı terrorun tam şəkildə üzə çıxmasına imkan yaratdığı vurğulanıb. Bidirilib ki, Azərbaycan tərəfindən müxtəlif ölkə və qurumların təmsilçilərinin həmin zonalara səfərlərinin təşkilinə, erməni faşizminin mahiyyətinin və törədilmiş hərbi cinayətlərin ifşa edilməsi istiqamətində beynəlxalq miqyasda aparılan işlərə əngəl olmaq məqsədilə erməni tərəfi tükənməyən dezinformasiyalarını yaymaqla dünya ictimaiyyətinin diqqətini əsas məsələdən – işğal dövründə törətdiyi cinayət əməllərindən yayındırmağa çalışır. Bu baxımdan qarşı tərəfin "məbəd" ətrafındakı hay-küyü təsadüfi hesab edilə bilməz.

Məqalədə düşmənimizin Azərbaycanın tarixi və əzəli torpaqlarındakı mədəni irsin silinməsi, özgəninkiləşdirilməsi siyasətinə də toxunan DQİDK sədri diqqətə çatdırıb ki, Cəbrayıl rayonunda olan 5 tarixi məscid, 50-yə yaxın ziyarətgah və onlarla tarixi memarlıq abidəsi də ermənilər tərəfindən tamamilə məhv edilib və rayon ərazisində, ümumiyyətlə, kilsə olmayıb.

Ölkəmizdə dini-mənəvi mühitə qayğı barədə geniş məlumatın əks olunduğu məqalənin sonunda Azərbaycanın mədəni irsini qəsdən hədəfə alan, onu özününküləşdirən, vaxtilə işğalda olmuş bölgələrdə təkcə İslam deyil, həm də xristian abidələrinə qarşı vandallıq etmiş, çoxsaylı hərbi cinayətlər törətmiş ölkənin, eləcə də bu cinayət əməllərinə göz yuman havadarlarının Azərbaycanı ittiham etmək üçün hər hansı hüquqi, yaxud mənəvi haqqının olmadığı vurğulanıb.

# "VƏTƏN MÜHARİBƏSİNDƏKİ QƏLƏBƏMİZDƏ XALQIMIZIN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN ROLU"

Aprelin 21-də Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə xalqımızın milli-mənəvi dəyərlərinin rolu" mövzusunda videokonfrans keçirilib.

Konfransda DQİDK sədri Mübariz Qurbanlı və Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli giriş sözü ilə çıxış ediblər.

Mübariz Qurbanlı bildirib ki, Ulu Öndər Heydər Əliyevin başlatdığı siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində rəşadətli Ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızı düşmən tapdağından azad edib. Əldə olunan bu qələbənin tarixi, iqtisadi, siyasi-diplomatik, mənəvi-psixoloji tərəflərini qeyd edən Komitə sədri tarixi zəfərimizdə milli-mənəvi dəyərlərin rolunu da xüsusi vurğulayıb.




Qeyd edib ki, tariximizin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən, 44 günlük müharibədə qazandığımız qələbənin əsasında cənab Prezidentin uzaqgörən və praqmatik siyasət yürüdərək Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə əldə etdiyi uğurları və milli-dini həmrəyliyimiz dayanır. Vətən müharibəsində birlik və həmrəylik nümayiş etdirərək "Dəmir yumruq" kimi birləşən müxtəlif xalqlara və dinlərə mənsub Azərbaycan vətəndaşları çiyin-çiyinə, qətiyyətlə və vətənpərvərliklə döyüşərək işğala son qoyublar. Bütün dini konfessiyalar dəfələrlə düşmənin ölkəmizə qarşı yönəlmiş təxribatlarına kəskin şəkildə etiraz edib, din xadimləri şücaətli Ordumuzun qələbəsi üçün daim dualar edərək ayinlər həyata keçiriblər.

Müharibədə əldə edilmiş zəfərin həm də erməni faşizmi üzərində qələbə olduğunu vurğulayan DQİDK sədri bildirib ki, Prezident İlham Əliyevin Hacıqabul rayonuna səfəri zamanı çıxışında qeyd etdiyi kimi, erməni faşizmi bütün ölkələrdə olmuş faşizmlərin ən eybəcəridir, ən qəddar faşizmdir. Biz bu müharibədə təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, həm də erməni faşizmini məhv etmişik.

Mübariz Qurbanlı erməni faşizminin tarixi abidələrə qarşı münasibətdə də özünü qabarıq şəkildə göstərdiyini diqqətə çatdıraraq Azərbaycanın bu qələbə ilə erməni xalqının özünü də faşist ideologiyasından xilas etdiyini deyib, eyni zamanda zəfərin bölgədə sülhün təminatı baxımından əhəmiyyəti barədə danışıb.

Milli-mənəvi dəyərlərin təbliğinin daha da genişləndirilməsinin önəminə toxunan Mübariz Qurbanlı vurğulayıb ki, xalqımıza məxsus dini, mənəvi, tarixi dəyərlər müxtəlif qurumlar tərəfindən öyrənilir, tədqiq və təbliğ olunur. Lakin bu istiqamətdə ümumi işləri həyata keçirən qurumun yaradılmasına da ehtiyac var idi. Prezident İlham Əliyevin Fərmanı ilə yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu xalqımızın mənəvi dəyərlərinin qorunması və təbliği istiqamətində atılan önəmli addımdır.

Komitə sədri çıxışının sonunda bir daha şəhidlərimizə rəhmət diləyib, qazilərimizə cansağlığı arzulayıb.

Fəzail İbrahimli DQİDK ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, bu sahədə Dövlət Komitəsi ilə koordinasiyalı və sıx əlaqələr qarşıya qoyulan məqsədlərə çatmaq üçün mühüm əhəmiyyət kəsb edir. O bildirib ki, bu gün bütün dünyada yaşayan ermənilər Vətən müharibəsindəki şanlı qələbəmizin adını dəyişdirməyə, zəfərimizə kölgə salmağa, beynəlxalq sferada ölkəmizə qarşı qaralama kampaniyaları təşkil edərək ideoloji müharibə aparmağa çalışırlar. Bütün bu cəhdlərə qarşı dilindən, dinindən, etnik mənsubiyyətindən, siyasi baxışından asılı olmayaraq, hər bir vətəndaş eyni ilə Vətən müharibəsi dövründə olduğu kimi sıx birləşərək mübarizə aparmalıdır. Qələbəmizin müəllifi, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Zəfər paradındakı çıxışında da bütün dünya ictimaiyyətinə Azərbaycanın haqq sözünü, qəti mövqeyini çatdırdı. F.İbrahimli onu da qeyd edib ki, müasir tariximizə nəzər saldıqda son 200 ildə dəfələrlə soyqırımlara, repressiyalara, etnik təmizləmələrə məruz qaldığımızı, əzəli torpaqlarımızı itirdiyimizi görürük. Lakin bütün bunlara baxmayaraq, müdrik xalqımız həmişə dövlətçiliyimizi, milli birliyimizi, milli ruhumuzu, vətənpərvərlik hisslərimizi qoruyub saxlamağı bacarıb. Bu amillər sonda bizi ali məqsədimiz olan şanlı qələbəmizə gətirib çıxarıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev qeyd edib ki, Vətən müharibəsindəki qələbəmizdə Prezident İlham Əliyevin uzaqgörən, unikal hərbi-siyasi gedişləri, rəşadətli Azərbaycan Ordusunun hünəri, xalqımızın milli və ideoloji birliyi həlledici rol oynayıb. 44 gün davam edən savaşda bütün dini konfessiyalara məxsus dini qurumların milli və dini birlik nümayiş etdirərək humanitar yardımlara qoşulduğunu vurğulayan Fuad Nurullayev xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq üçün digər dini icmaların QMİ ilə birlikdə müstəsna xidmətlər göstərdiklərini, xarici dillərdə filmlər, videoçarxlar, mətnlər hazırlayaraq yaydıqlarını bildirib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədov vurğulayıb ki, Vətən müharibəsi zamanı xalqımızın hər an dövlətin və Ordunun yanında olması və dəstəkləməsi uzun illərdir Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən uğurlu siyasətin nəticəsi idi. Vətən müharibəsi zamanı ən böyük üstünlüyümüz milli-mənəvi dəyərlərimizə sıx bağlılığımız idi. Həmin dövrdə dəyərlərimizə olan sevgi, Vətən yolunda fədakarlıq bizim üçün ən güclü silaha çevrildi, düşməndə vahimə yaratdı və tez bir zamanda məğlubiyyəti qəbul etməsinə səbəb oldu. Millət vəkili çıxışında düşmənin işğal etdiyi bütün ərazilərdə dini ibadət ocaqlarımızı və bizim üçün dəyər sayılan bütün abidələri yerlə yeksan etdiyini qeyd edərək bu vandallığı böyük bir xalqın mədəniyyət tarixinə vurulan ağır bir zərbə kimi xarakterizə edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qısa müddətdə bütün ibadət ocaqlarını təmir və bərpa edəcəyini və artıq bu prosesin başladığını bildirib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov qeyd edib ki, milli-mənəvi dəyərlər bir millətin dinini, dilini, ədəbiyyatını, tarixi şəxsiyyətlərini əhatə edir. Ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin birlik içərisində yaşadıqlarını vurğulayan rektor buna bariz nümunə kimi Vətən müharibəsi zamanı müxtəlif dinlərə, etnik kimliyə mənsub olan gənclərimizin Vətən uğrunda mübarizəyə qalxmalarını, əsas amallarının vətənpərvərlik olmasını göstərib. Bildirib ki, bu birlik və bərabərlik mütləq qələbəmizin təməlini qoydu. Rektor diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi Vətən müharibəsi bütün dünyaya gücümüzü göstərdi, savaşdakı əməliyyatlarımız dünyanın aparıcı hərbi məktəblərində öyrənilməyə başlandı.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Azər Badamov çıxış edərək bildirib ki, 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının tale yüklü məsələlərdə sıx birləşməyi bacardığını bütün dünyaya sübut etdi. Müharibə dövründə siyasi əqidəsindən, dini baxışlarından, etnik mənsubiyyətindən, dünyanın harasında yaşamasından asılı olmayaraq bütün azərbaycanlılar bir məqsəd ətrafında birləşdi və Ali Baş Komandanın tapşırığı ilə silaha sarılaraq dəmir yumruğa çevrildi. Ermənilərin torpaqlarımızı işğal altında saxlamaqla kifayətlənmədiyini qeyd edən deputat, düşmənin tarixi-dini abidələrimizə qarşı soyqırımı həyata keçirdiyini, yalnız İslam abidələrini deyil, qədim Alban irsinə aid məbədləri də dağıtdığını, saxtalaşdırmağa, özününküləşdirməyə çalışdığını vurğulayıb.

Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev qeyd edib ki, şəhidlərin canı-qanı bahasına başa gələn bu Zəfər bizi bütün dünya xalqları qarşısında başı uca etdi. Vətən müharibəsi dövründə icma üzvlərinin fəaliyyətinə diqqət çəkən Milix Yevdayev din xadimlərinin işğaldan azad olunmuş Ağdam şəhərinə səfərini xatırladıb. Ermənistanın törətdiyi müharibə cinayətlərinin nəticələrindən dəhşətə gəldiyini dilə gətirib.

Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiya İdarəsinin katibi protoiyerey Mefodiy Elnur Əfəndiyev bildirib ki, işğal dövründə Azərbaycan xalqı bütün dünyaya göstərdi ki, o səbrli və sülhsevən xalqdır. Səbr kasası daşan xalqımız və Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri öz Ali Baş Komandanının ətrafında sıx birləşərək ümumi evimiz – doğma Azərbaycanın müdafiəsinə qalxdılar. O vurğulayıb ki, Vətən müharibəsi dövründə dinc əhaliyə qarşı törədilmiş Xocalı soyqırımına, əsrlərlə insanlığa yaraşmayan rəftara, təcavüzkarların vəhşi hərəkətlərinə, məscidlərin, kilsə və digər müqəddəs yerlərin xarabalıqlara çevirilməsinə baxmayaraq, Azərbaycan əsgəri düşmənin qoyub qaçdığı erməni qocalarına, uşaqlarına qayğı göstərdi. E.Əfəndiyev bunu Azərbaycan əsgərinin yüksək milli-mənəvi dəyərlərə malik olmasının göstəricisi olduğunu deyib. Düşmənin bu müharibəyə dini motiv verməyə çalışdığını diqqətə çatdıran natiq savaşın bütün dünyaya cəmiyyətimizin multikultural baza prinsiplərinə sadiqliyini nümayiş etdirdiyini vurğulayıb.

Alban-udi xristian dini icmasının sədri Robert Mobili isə çıxışında bildirib ki, işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı tarixi-dini irsin məhv edilməsi mənzərəsi insanı dəhşətə gətirir. Alban Apostol kilsəsinin, onun irsinin ermənilər tərəfindən özününküləşdirilməsi faktları barədə də danışan R.Mobili etnik saxtakarlığa əl atan düşmənin kilsələrin memarlıq quruluşunu dəyişdirdiyini bildirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov ölkəni ayaqda tutan, gücləndirən sütunlar içərisində milli-mənəvi dəyərlərimizin də özünəməxsus rolu olduğunu deyib. Xalq olaraq dəyərlərimizin sərhəddinin geniş olduğunu qeyd edən natiq bildirib ki, bu şanlı qələbəmiz həm də tolerantlığın, milli-mənəvi dəyərlərimizin zəfəridir. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə azan səsi kilsə zənginin sədaları ilə birgə səslənir.

Millət vəkili Sahib Alıyev qeyd edib ki, Vətən müharibəsi həm də dəyərlərin savaşı idi. O, müharibənin bir tərəfində ləyaqətli, mərd, açıq siyasət yürüdən, Ordusunda 10-dan artıq xalqın nümayəndəsinin mübarizə apardığı, mülki əhaliyə bir güllə belə atmayan, qayğı ilə yanaşan Azərbaycanın digər tərəfdə isə təfriqəçi, suyu bulandırmağa çalışan, 10 min fərarisi olan, əli dinc əhalinin qanına batan Ermənistanın dayandığını söyləyib. Ali Baş Komandanımız Prezident İlham Əliyevin özünün də xalqımız üçün dəyərə çevrildiyini və qələbə rəmzi olduğunu bildirib.

# "XXI ƏSR: MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR VƏ GENDER SİYASƏTİ" MÖVZUSUNDA VİDEOKONFRANS KEÇİRİLİB

Aprelin 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) birgə təşkilatçılığı ilə "XXI əsr: milli-mənəvi dəyərlər və gender siyasəti" mövzusunda videokonfrans keçirilib. Videokonfransda təşkilatçı qurumların rəhbərliyi və əməkdaşları, şəhər və rayon icra hakimiyyətlərinin nümayəndələri, DQİDK və AQUPDK-nın yanında fəaliyyət göstərən İctimai Şuraların üzvləri iştirak ediblər.

DQİDK sədri Mübariz Qurbanlı və AQUPDK sədri Bahar Muradova konfransda giriş nitqi ilə çıxış ediblər.

M.Qurbanlı konfransın mövzusuna diqqət çəkərək bildirib ki, milli-mənəvi dəyərlərimiz və gender bərabərliyi mövzusu Azərbaycan xalqının keçdiyi tarixi yolda hər zaman müzakirə mövzusu olub və diqqət mərkəzində saxlanılıb.




Tarixən gender bərabərliyinin xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynadığını vurğulayan Mübariz Qurbanlı qeyd edib ki, bu sahədə Azərbaycan xalqının tarixi köklərinə, mənəvi dəyərlərinə bağlılığı mühüm əhəmiyyətə malikdir.

Komitə sədri Ulu Öndər Heydər Əliyevin gender bərabərliyinin dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılması üçün gördüyü işlərdən danışıb, müasir cəmiyyətimizdə gender zorakılığı hallarının qarşısının alınmasında dahi rəhbərin müdrik siyasətini xüsusi qeyd edib. Vurğulayıb ki, ölkəmizdə insan hüquq və azadlıqlarının, onların tərkib hissəsi kimi gender bərabərliyinin təmin edilməsi daim Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Ümummilli Liderin gender bərabərliyi siyasətini yeni meyarlarla zənginləşdirərək yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyev bu istiqamətdə mühüm addımlar atmaqdadır.

Komitə sədri bildirib ki, gender sahəsində həyata keçirilən maarifləndirmə işində milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz, dinimiz xüsusi rol oynayır. Xalqa, millətə xas olan dəyərlər gender bərabərliyinin təmin olunmasına bilavasitə təsirini göstərir.

AQUPDK-nın sədri Bahar Muradova isə qeyd edib ki, gender bərabərliyi kişi və qadınlar üçün bərabər hüquq, vəzifə, imkanlar, o cümlədən cəmiyyətdə bərabər sosial vəziyyətin yaradılmasıdır. Eyni zamanda, gender bərabərliyi dedikdə bərabər təmsilçilik və iştirakçılıq nəzərdə tutulur. Bərabər imkanların isə insan hüquqları, onların bütün formalarının reallaşdırılması üçün yaradılması vacib olan şərait və təminatlardan ibarət olduğunu diqqətə çatdıran Komitə sədri hər bir dövlətin bu məsələ ilə əlaqədar müvafiq siyasət müəyyənləşdirdiyini vurğulayıb. Bildirib ki, bu bərabərliyə nail olmaq üçün ilk növbədə cinsi bərabərsizliyin və ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılmasına nail olmaq lazımdır. Azərbaycan bununla bağlı beynəlxalq Konvensiyalara qoşulub və ondan irəli gələn öhdəlikləri öz qanunvericilik aktlarına daxil edib və bir cinsin nümayəndələrinin üstünlüyünün təmin olunmasına qarşıdır, həmçinin real həyatda bunu aradan qaldırmağa çalışır. Hüquqi çərçivələrin müəyyənləşməsində cəmiyyətin malik olduğu milli-mənəvi dəyərlərin, adət-ənənələrin, mentalitetin nəzərə alınmasının əhəmiyyətinə toxunan B.Muradova ölkəmizdə bütün qanunların qəbulu zamanı həm gender bərabərliyinin təmin olunması üzrə çərçivələrə əməl edildiyini, həm də milli-mənəvi dəyərlərin müəyyənləşdirdiyi məqamların hüquqi çərçivələrlə uzlaşdığını söyləyib.

Bu ilin ISESCO tərəfindən dünyada "Qadınlar ili" kimi qeyd olunduğunu vurğulayan Komitə sədri təşkilatın toplantısında çıxış edən Birinci-vitse prezident Mehriban xanım Əliyevanın gender bərabərliyi sahəsindəki hədəflərə dair ölkəmizin mövqeyini ifadə etdiyini bildirib.

Daha sonra Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov "Tarix və müasirlik kontekstində milli-mənəvi dəyərlər və qadın hüquqları" mövzusunda çıxış edib. Tarixin müxtəlif mərhələlərində qadın və kişilərə qarşı münasibətlərin formalaşmasına özünəməxsus formada təsir edən dini inanclar, dünyagörüşü aspektlərinə toxunan Aqil Şirinov başqa dinlərdən fərqli olaraq, İslam təfəkküründə ilk gündən qadına yüksək dəyər verilməsinin Qurani-Kərimdə öz təsdiqini tapdığını qeyd edib: "Feodal quruluşlardan fərqli olaraq, bu gün inkişaf edən kapitalizm dünyasında bütün dinlərdə, o cümlədən İslam dinində qadına münasibət tamamilə başqa formada özünü büruzə verir. Artıq sənaye və postsənaye dövrünün tələblərinə uyğun olaraq qadın yalnız ana və ev işləri ilə məşğul olan biri kimi deyil, həm də cəmiyyətin müxtəlif sahələrində iştirak edən varlıq kimi qəbul edilir". Ölkəmizdə qadına verilən dəyərdən bəhs edən rektor tarixən digər türk cəmiyyətlərindən fərqli olaraq, Azərbaycanda qadına daha mütərəqqi bir münasibət olduğunu bildirib.

"İslamda qadın hüquqları və gender bərabərliyi" mövzusunda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı isə İslamın qadına qazandırdığı hüquq və azadlıqlar, İslamda qadınların təhsilli olmasının əhəmiyyəti kimi vacib məqamlara toxunub. Bu məqsədlə cəmiyyətdə dini maarifləndirmənin, xüsusilə İslamda ailə dəyərləri, qadının mövqeyi, ona verilən dəyər mövzusunda təbliğatın aparılmasının vacibliyini bildirən Q.Cavadlı dini icmaların qadın hüquqlarının qorunmasındakı rolu və din xadimlərinin üzərlərinə düşən missiyanı uğurla həyata keçirməsi barədə danışıb. Bildirib ki, bu gün Azərbaycanda qadınların rəhbərlik etdiyi müsəlman dini icmaları mövcuddur ki, onlar böyük maarifçilik və xeyriyyəçilik işləri aparırlar.

AQUPDK-nın İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov "Gender bərabərliyinin təmin edilməsi: problemlər, nailiyyətlər, inkişaf məqsədləri və yeni çağırışlar" mövzusunda təqdimatla çıxış edərək bir sıra statistik məlumatlar paylaşıb. Şöbə müdiri, eyni zamanda məişət zəminində fiziki, cinsi, psixoloji zorakılıq, iqtisadi asılılığın yaradılması, intihar, selektiv abortlar, cinsi ayrı-seçkilik, uşaq nikahları və alimentlərin ödənilməməsi kimi bir sıra problemlərə toxunub, eləcə də onların həlli yolları barədə danışıb.

DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova "Milli-mənəvi dəyərlərimizin qorunmasında qadınların yeri və rolu" mövzusunda danışaraq bildirib ki, müasir dünyamızda istənilən cəmiyyətin sürətli inkişafının əsas amillərindən biri həmin cəmiyyətdə qadının ictimai fəallığı və buna yaradılan şəraitdən çox asılıdır. Qadınların istər ailədə, istərsə də cəmiyyətdəki layiqli mövqeyi ilk növbədə həmin cəmiyyətin yüksək mənəvi keyfiyyətinin, o cümlədən inkişafının və xoşbəxt gələcəyinin göstəricisidir. E.Kərimova, eyni zamanda milli-mənəvi dəyərlər sistemimizin təşəkkülündə və yaşadılmasında qadınların xüsusi roluna toxunub.

Videokonfrans müzakirələrlə davam etdirilib.

# "KÖNÜLLÜ FƏALİYYƏT" LAYİHƏSİNİN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ KEÇİRİLİB

Aprelin 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) "Könüllü fəaliyyət" layihəsinin iştirakçılarının Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinovla, aprelin 22-də isə Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılovla onlayn formatda görüşü keçirilib.

Layihə iştirakçılarının diqqətinə çatdırılıb ki, dövlət orqanlarında gənclərin potensialından daha səmərəli istifadə etmək, gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və praktiki biliklərini artırmaq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarından və dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nda qarşıya qoyulmuş vəzifələrdən biridir.

Aqil Şirinov könüllülük fəaliyyətinin gənclərin işgüzarlığının, bilik və bacarığının artırılmasında, dünyagörüşünün genişlənməsində rolundan danışıb, Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyət istiqamətləri barədə könüllülərə geniş məlumat verib.

Mehman İsmayılov da qeyd edib ki, könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilib, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə edir və gənclərimizin həyat tərzinə çevrilir.

Fondun icraçı direktoru, eyni zamanda, könüllülərin MDTF-in fəaliyyətində yaxından iştirak etdiklərindən, xüsusilə pandemiya dövründə, həmçinin Vətən müharibəsi zamanı könüllülərin fəal şəkildə Fondla əməkdaşlığından bəhs edib.

Görüşlər zamanı könüllüləri maraqlandıran suallar cavablandırılıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ERKAN ÖZORALLA GÖRÜŞÜB

Aprelin 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.



Komitə sədri xalqlarımız arasında tarixboyu formalaşmış, Ulu Öndər Heydər Əliyevin söylədiyi "Bir millət, iki dövlət" çağırışını özündə ehtiva edən qardaşlıq və dostluq münasibətlərinə diqqət çəkərək Türkiyənin Vətən müharibəsi dövründə bütün səviyyələrdə daim Azərbaycanın haqq savaşını dəstəkləməsinin növbəti həmrəylik nümunəsi olduğunu və bu dəstəyin hər bir Azərbaycan vətəndaşına fəxarət hissi yaşatdığını bildirib.

Qardaş ölkələrin dini-mənəvi sahədə əməkdaşlığının önəminə toxunan Mübariz Qurbanlı DQİDK ilə Türkiyənin Diyanət İşləri Başqanlığı arasında əlaqələrin daha da dərinləşdiyini qeyd edib. Bu əlaqələrin inkişafında Türkiyənin ölkəmizdəki səfirliyinin, o cümlədən Din İşləri üzrə Müşavirliyin böyük xidmətlərini diqqətə çatdırıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Erkan Özoral fəaliyyətinin Azərbaycanın tarixi zəfər qazandığı bir vaxta təsadüf etməsindən qürur hissi keçirdiyini vurğulayıb. E.Özoral ölkəmizi öz Vətənindən ayırmadığını bildirərək Azərbaycan-Türkiyə arasındakı münasibətlərin yaxınlığı və inkişafı baxımından dünyada oxşar vəziyyətin müşahidə edilmədiyini qeyd edib. Azərbaycanın yüksək səviyyəli tolerantlıq mühiti ilə seçildiyini söyləyən səfir Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin din sahəsində həyata keçirdiyi uğurlu siyasəti, dinlərarası və millətlərarası dialoq işinə bəxş etdiyi töhfələri yüksək qiymətləndirib.

DQİDK sədri ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, həmçinin din sahəsində daha da genişləndirilməsi işinə verdiyi töhfəni xüsusi vurğulayaraq səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb.

# KOMİTƏ SƏDRİ ARGENTİNANIN "CANAL A" TELEVİZİYASINA MÜSAHİBƏ VERİB

Aprelin 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Argentinanın "canal a" televiziyasının jurnalisti Sautel Santiaqoya müsahibə verib.



Komitə sədri müsahibəsində Azərbaycandakı dinlərin tarixi, mövcud dini durum, dinə dövlət qayğısı, eləcə də ölkəmizdəki dinlərarası harmoniya, birgəyaşayış mühiti barədə geniş məlumat verib.

Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində bünövrəsini qoyduğu siyasət onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xalqımız bu gün dünya miqyasında demokratik dəyər kimi təbliğ olunan tolerantlığa təkcə hüquq yox, həm də mənəvi dəyər prizmasından yanaşır. Azərbaycanda dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqları qanunla qorunur.

Azərbaycanda müxtəlif dini konfessiya nümayəndələrinin etnik-mədəni özünəməxsusluğunun qorunub saxlanılması üçün hərtərəfli hüquqi-demokratik şərait yaradıldığını qeyd edən DQİDK sədri ölkəmizdə 2250 məscid, 16 kilsə, 7 sinaqoq, Zərdüştlük dininə aid Atəşgah məbədi və müxtəlif dinlərə məxsus ibadət yerlərinin olduğunu, 37-si qeyri-islam olmaqla 970 dini icmanın dövlət qeydiyyatına alındığını diqqətə çatdırıb.

Onu da vurğulayıb ki, dövlət başçımız tərəfindən hər il dini konfessiyalara maliyyə yardımı ayrılır və vəsait hesabına ölkədə dini maarifləndirmə, milli-mənəvi dəyərlərin təbliği işi daha da gücləndirilir, dini icmalar tərəfindən müxtəlif layihələr həyata keçirilir.

Müsahibə zamanı ermənilərin Azərbaycanın tarixi və əzəli torpaqlarındakı tarixi-dini abidələrə qarşı vəhşi münasibətinə, Qafqaz Albaniyasına aid olan tarixi abidələrin saxtalaşdırılması siyasətinə də toxunan Mübariz Qurbanlı diqqətə çatdırıb ki, ölkəmizin mədəni irsini qəsdən hədəfə alan, onu özününküləşdirən ermənilər vaxtilə işğalda olmuş bölgələrdə təkcə İslam deyil, həm də xristian abidələrinə qarşı vandallıq edib.

Sonda qonağa DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

Qeyd edək ki, böyük izləyici kütləsinə malik olan Argentinanın "canal a" televiziyasında əsasən mədəniyyətə yönəlik verilişlər yayımlanır.

# MÜBARİZ QURBANLININ QAZAXISTANIN EA-NEWS.KZ PORTALINDA MÜSAHİBƏSİ DƏRC EDİLİB



М.Гурбанлы: Почти все из 128 албанских храмов, 67 мечетей, в том числе 48 гробниц, 192 святыни, находящихся на ранее оккупированных территориях или григорианизированы (армянизированы) или разрушены

Автор: EA-NEWS Апрель 5, 2021 No comment(s)

*Интервью с председателем Госкомитета по работе с религиозными образованиями Азербайджанской Республики Мубариза Гурбанлы*

общественность осудить Армению за отказ от предоставления карт минных полей

Апрель 5, 2021

М.Гурбанлы: Почти все из 128 албанских храмов, 67 мечетей, в том числе 48 гробниц, 192 святыни, находящихся на ранее оккупированных территориях или григорианизированы (армянизированы) или разрушены

Апрель 5, 2021

Более 3 миллионов данных казахстанских пользователей Facebook утекли в сеть.

Апрель 5, 2021

Глава МИД Ирана посетит страны Центральной Азии

Апрель 5, 2021

Казахстан намерен воспользоваться опытом Турции в сфере медиа

Апрель 5, 2021

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının israilli jurnalist Raşel Avrahama verdiyi müsahibə Qazaxıstanın ea-news.kz portalında dərc edilib.

Mübariz Qurbanlı müsahibəsində Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Dağlıq Qarabağ bölgəsindəki həm müsəlman, həm də xristian dini abidələrini dağıtması, o cümlədən mədəni irsi yerlə yeksan etməsi və bəzi beynəlxalq qurumların buna göz yummasını vurğulayıb.

Komitə sədri erməni işğalçıları tərəfindən Qafqazın mədəniyyət beşiyi hesab olunan Qarabağdakı mədəni, tarixi və dini abidələrin dağıdılmasını İŞİD-in Suriyanın qədim şəhəri Palmira və İraqın Nimrud şəhərində törətdiyi dağıntılar ilə müqayisə edib.

Müsahibədə qeyd edilib ki, Ermənistan işğal altında olan ərazilərdə Azərbaycan xalqının irsini və izlərini silməyə çalışıb, bir çox şəhər və kənd adlarını dəyişdirib. Lakin Azərbaycanın böyük qələbəsi ilə işğal altından azad olunan torpaqlarda artıq dövlət tərəfindən kəndlərin, şəhərlərin, eləcə də dini abidələrin, məscidlərin tikintisi və bərpası üzrə layihəyə başlanıldığı vurğulanıb.

EURASIA NEWS

# "XALQIMIZIN MİLLİ BİRLİYİNİN MÖHKƏMLƏNMƏSİNDƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZİN ROLU"

Aprelin 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda videokonfrans keçirilib.

Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Masallı, Cəlilabad, Yardımlı, Lənkəran, Astara, Lerik şəhər və rayonlarının icra hakimiyyətləri, idarə və müəssisələrinin nümayəndələri, o cümlədən din xadimlərinin qatıldığı videokonfransı giriş sözü ilə açan Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, dünyada zəngin milli-mənəvi dəyərləri və adət-ənənələri ilə tanınan xalqımız tarixən müxtəlif ictimai-siyasi quruluşlarda yaşamasına baxmayaraq, özünün mənəvi dəyərlərini qoruyub saxlayıb, ona ən qiymətli sərvəti kimi yanaşıb.



Komitə rəsmisi qeyd edib ki, Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin zənginləşməsi istiqamətində önəmli addımlar atıb, bu sahədə yeni mərhələnin əsasını qoyub. Bu təməl üzərində Prezident İlham Əliyev tərəfindən milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına xüsusi diqqət və qayğı göstərilir. Hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir.

Milli-mənəvi dəyərlərin ictimai şüurun formalaşmasında və həmrəyliyin təmin olunmasında mühüm rol oynadığını vurğulayan S.Salahlı 44 gün davam edən ikinci Qarabağ müharibəsində qazanılan böyük zəfərdə bu ali dəyərlərin də xüsusi rol oynadığını bildirib. Diqqətə çatdırıb ki, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, uzaqgörən daxili və xarici siyasəti, rəşadətli Ordumuzun gücü, xalqımızın milli ruh yüksəkliyi və milli-mənəvi həmrəyliyimizin vəhdəti nəticəsində 30 ilə yaxın müddət ərzində düşmən işğalı altında qalmış Qarabağ öz doğma sahiblərinə – xalqımıza qaytarıldı. Siyasi, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, hər kəs Vətənimiz uğrunda bənzəri olmayan həmrəylik nümayiş etdirdi. Xalqın ölkənin liderinə dərin inamı, cəmiyyətimizdəki siyasi, milli və dini həmrəylik qələbəmizin təminatında çox mühüm rol oynadı.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev bildirib ki, milli-mənəvi dəyərlər xalqı ayaqda tutan, onu formalaşdıran ayrı-ayrı etnosların və millətlərin həmrəylik içərisində yaşamasını və onların tarix səhnəsində vahid kimliklə təmsil olunmasını təmin edir. Bu dəyərlərimizin ən zəngin elementlərindən birinin də multikultural və tolerant ənənəmiz olduğunu qeyd edən şöbə müdiri vurğulayıb ki, respublikadakı dini müxtəlifliyin tolerant əsaslarının qorunub saxlanılması, Azərbaycanın əldə etdiyi multikultural nailiyyətlərin beynəlxalq ictimaiyyətə təbliği, tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanılmasına dəstəyin göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. O, Vətən müharibəsində ölkəmizdə yaşayan bütün millətlərin, dinlərin nümayəndələrinin ərazi bütövlüyümüzün bərpası uğrunda istər ön cəbhədə, istərsə də arxa cəbhədə əlindən gələni əsirgəməməsini dövlətin apardığı bu uğurlu siyasətin nəticəsi kimi dəyərləndirib.



Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev tədbir iştirakçılarını müqəddəs Ramazan ayı münasibətilə təbrik edərək bildirib ki, heç şübhəsiz, builki Ramazan ayını qalib xalq kimi qeyd etməyimiz xüsusi əhəmiyyət kəsb edir. İllər öncə hüquqları pozulmuş, ərazilərinin 20 faizi əlindən alınmış, 1 milyondan çox əhalisi məcburi köçkün düşmüş xalqımız 30 ildən sonra Vətən müharibəsində qələbə qazanmaqla tapdanmış ədaləti bərpa etdi. C.Əliyev düşmən işğalından azad edilmiş Ağdam şəhərinə səfərini xatırladaraq vəhşi münasibət sərgilənmiş yaşayış yerləri və tarixi-mədəni abidələr, xüsusilə Ağdam Cümə məscidinin məruz qaldığı dəhşətli erməni vandallığı barədə təəssüratlarını tədbir iştirakçıları ilə bölüşüb.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, Masallı şəhər "Cümə" məscidinin imamı Məftun Hüseynov çıxış edərək bildirib ki, tarixin süzgəcindən keçib gələn milli-mənəvi dəyərlərimiz xalqımızın formalaşmasında, öz milli dövlətini qurmasında ən önəmli faktorlardandır. Ulu Öndər Heydər Əliyevin "Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən, nəsillərə keçib, yaşayıb, gəlib bu günlərə çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük sərvətidir" fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdıran M.Hüseynov tolerantlığa əsaslanan multikultural dövlət siyasətinin təməlinin də elə məhz Ümummilli Liderimiz tərəfindən atıldığını vurğulayıb.

Masallı Rayon İcra Hakimiyyəti başçısının I müavini Məmmədhüseyn Hüseynov, Salyan Rayon Heydər Əliyev Mərkəzinin müdiri Nübar Bayramova, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Sənan Xəlilov, Salyan rayon Gənclər və İdman İdarəsinin rəisi Ayaz Hüseynov, Lənkəran rayonu Sütəmurdov kənd məscidinin imamı Fəxri Sadıqov milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışaraq bildiriblər ki, tarixin ən çətin dövrlərində belə xalqımız öz milli-mənəvi dəyərlərini qoruyub saxlamağı, müqəddəs məqsədləri uğrunda birləşməyi, vəhdət olmağı bacarıb.

Videokonfrans müzakirələrlə davam etdirilib.

# "DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK" KİTABININ ONLAYN TƏQDİMATI OLUB

Aprelin 19-da Azərbaycan İlahiyyat İnstitutunun (AİI) təşkilatçılığı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərovun "Din və ideoloji təhlükəsizlik" kitabının onlayn təqdimatı keçirilib.

Tədbir AİI-nin Dillər və ictimai fənlər kafedrasının müdiri İlkin Əlimuradovun moderatorluğu ilə baş tutub.

Açılış nitqi ilə çıxış edən AİI-nin rektoru Aqil Şirinov qeyd edib ki, din və təhlükəsizlik sahəsində digər dillərdə, xüsusən ingilis dilində çoxsaylı kitab və məqalələr mövcud olsa da, sözügedən araşdırma Azərbaycanda bu sahədə yazılan ilk əsərdir.

Mövzu ilə əlaqədar akademik əsərlərin yazılmasının vacibliyinə toxunan A.Şirinov kitabın bölmələri haqqında geniş məlumat verib. Müstəsna əhəmiyyət kəsb edən bu əsərin gənclər, xüsusilə universitet tələbələri tərəfindən istifadə edilməsinin vacibliyi barədə danışıb.

Millət vəkili Arzu Nağıyev çıxış edərək digər ölkələrdən transfer olunan dini cərəyanların arxasında heç də hər zaman xoş niyyət və məramlı qüvvələrin dayanmadığını, bu qrupların sosial şəbəkələr vasitəsilə gəncləri təsir altına salmağa çalışdıqlarını söyləyib. O, həmmüəlliflərin din və ideoloji təhlükəsizlik sahəsindəki zəngin təcrübəsinin nəşrdə özünü biruzə verdiyini bildirib.

Azərbaycan Milli Məclisinin deputatı Elman Nəsirov isə öz çıxışında bildirib ki, hazırkı dünya nizamının pozulduğu, beynəlxalq münasibətlər sistemində xaosun hökm sürdüyü, beynəlxalq hüquq normalarının tapdalandığı vəziyyətdə dini radikal qrupların müxtəlif vasitələrlə, eyni zamanda sosial şəbəkələrin köməyi ilə təbliğat aparmaları və öz dırnaqarası ideologiyalarını yaymaları dünya ölkələrini böyük bir təhlükə ilə üz-üzə qoyur. Bu baxımdan nəşr edilən kitab təkcə Azərbaycanın hüdudlarında və ya regional deyil, beynəlxalq müstəvidə də çox mühüm əhəmiyyət kəsb edir.

DQİDK sədrinin müavini Gündüz İsmayılov Azərbaycanda ilk dəfə olaraq təhlükəsizlik eksperti və ilahiyyatçıların birgə ərsəyə gətirdiyi kitabı din və ideologiya sahəsinə giriş vəsaiti və nəzəriyyə kimi xarakterizə edib. Onun dövlət-din münasibətləri sahəsində istər dövləti, istər dini sahəni təmsil edən, eyni zamanda təhlükəsizlik məsələlərindən məsul olan şəxslər üçün əhəmiyyətli istinad olduğunu bildirib. G.İsmayılov qeyd edib ki, ilk dəfə bu sahəyə həm təhlükəsizlik, həm də elmi cəhətdən yanaşılması, Azərbaycan həqiqətləri, dövlət maraqları və xalqın dini baxışlarının əks olunması, müxtəlif auditoriyalarla yanaşı, tələbələr üçün də zəngin vəsait olması baxımından "Din və ideoloji təhlükəsizlik" kitabı əvəzi olmayan nəşrdir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov nəşrin bütün bəşəriyyət üçün taleyüklü məsələyə həsr edildiyini diqqətə çatdırıb. Mərkəzin dəstəyi ilə "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici universitetlərdə tədris edildiyini bildirən R.Həsənov sözügedən nəşrin də tədris proqramına daxil edilməsinə maraqlı olduqlarını qeyd edib.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev bildirib ki, radikallığın kökündə dinin düzgün anlaşılmaması dayanır. Milli-mənəvi və dini dəyərlərimizin təbliğ və təşviq edilməsinin, dinin ictimaiyyətə düzgün

davamı səh. 7

# SƏYAVUŞ HEYDƏROV:
# "DÜNYADA MƏNƏVİ BÖHRANIN ARADAN QALDIRILMASININ ZAMANI ÇATIB"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Avropa İttifaqı - Azərbaycan Ədliyyə, Azadlıq və Təhlükəsizlik, İnsan hüquqları və Demokratiya məsələləri üzrə Alt-Komitəsinin 26-27 aprel tarixlərində keçirilən onlayn iclasında məruzə ilə çıxış edib.

Sədr müavini ölkəmizdə dövlətin din sahəsində siyasəti, dini etiqad azadlığının təminatı, dini konfessiyalara qayğı, tolerant və multikultural ənənələr barədə danışıb.

Bildirilib ki, Azərbaycan dövlətinin dinlə bağlı siyasəti dini münasibətləri demokratik normalar əsasında inkişaf etdirən, cəmiyyətdə dini müxtəlifliyi, vicdan və dini etiqad azadlığını təmin edən fəaliyyət sistemidir. Dünyada dini zəmində baş verən münaqişə və toqquşmalar kontekstində insanların hüquq və azadlıqlarının pozulduğu bir dövrdə ölkəmizdə dini etiqad sahəsində möhkəm dayaqlara malik hüquqi mexanizmlər mövcuddur. Azərbaycanda din azadlığı prioritet məsələdir və onun qorunması ölkənin təhlükəsizliyinin başlıca qarantıdır. Azərbaycan dünya xəritəsində tolerantlıq mərkəzinə, XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformaya çevrilib. Bu da onu deməyə əsas verir ki, dünyada etimadsızlıq mühitinin formalaşdığı bir zamanda Azərbaycan tolerantlıq nümunəsidir, çünki multikulturalizm və birgəyaşayışı həyat tərzinə çevirməyi bacarıb. Mütəmadi olaraq Prezidentin Ehtiyat Fondundan dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinin daha da gücləndirilməsi məqsədilə ölkədə fəaliyyət göstərən həm İslam, həm də qeyri-islam dini icmalara maddi yardım ayrılır.

Çıxışında Azərbaycanın 44 günlük Vətən müharibəsində bütün dinlərin və millətlərin nümayəndələrinin nümayiş etdirdiyi birliyi xüsusilə qeyd edən sədr müavini vurğulayıb ki, istər döyüş meydanında, istər ideoloji mübarizədə, istərsə də haqq səsimizin beynəlxalq səviyyədə eşidilməsində dini konfessiyalar müstəsna xidmətlər göstərdilər. Bütün konfessiya rəhbərləri dəfələrlə milli birlik və dini həmrəylik göstərərək düşmənin ölkəmizə qarşı yönəlmiş təxribatlarına, o cümlədən xristian dininin siyasiləşdirilməsinə, Qarabağ ətrafındakı münaqişəyə dini çalar verilməsi cəhdlərinə kəskin şəkildə etiraz etdilər.



Səyavuş Heydərov, eyni zamanda Azərbaycandakı dini durumla bağlı bəzi beynəlxalq hesabatlarda yer alan qərəzli məlumatlara diqqət çəkərək dini icmaların üzvlərinin dini etiqad azadlığının məhdudlaşdırılması barədə qeyri-obyektiv, həqiqəti əks etdirməyən informasiyalardan ölkəmizə qarşı təsir və təzyiq vasitəsi kimi istifadə edildiyini bildirib. Onu da söyləyib ki, həmin icmalar tərəfindən məqsədyönlü olaraq qanunun tələbləri pozulur və bu hallara qarşı dövlət müvafiq addımlar atmağa bir növ təhrik olunur. Nəticədə isə dövlətin atdığı addımlara siyasi çalar verilərək ölkəmizin əleyhinə istifadə edilir.

İclasın 2-ci günü çıxışı zamanı bir sıra ölkələrdə dini və siyasi mərkəzlər tərəfindən dinin siyasiləşdirilməsi faktoruna toxunan DQİDK-nın sədr müavini bildirib ki, günümüzdə dünyada dini zəmində baş verən münaqişələr onu göstərir ki, bu sahədə müvəffəqiyyət hələ əldə olunmayıb. S.Heydərov dünyada mənəvi böhranın aradan qaldırılmasının zamanının çatdığını deyib. Bildirib ki, radikallığın yaranmasına səbəb olan amillərdən biri kimi söz azadlığı və demokratiya adı altında İslam müqqədəslərinin təhqir edilməsi yolverilməzdir. Bu təhqirlərin həssaslığını və fəsadlarını nəzərə alaraq, belə hallarda söz azadlığı və demokratiyanın sərhədi müəyyənləşdirilməlidir. Bu baxımdan beynəlxalq hüquq normalarına müvafiq əlavələr etməklə belə tendensiyaların tənzimlənməsinə diqqət artırılmalıdır.

Vurğulayıb ki, dini radikalizmin yaranma səbəblərinin müəyyənləşdirilməsi və mümkün priventiv tədbirlərlə onun təhlükəli fəsadlarının qarşısı alına bilər.

Azərbaycanın bu sahədə öz təcrübəsini bölüşməyə hazır olduğunu qeyd edən sədr müavini ikili standartlarla mübarizə, ayrı-seçkiliyə, xüsusən dinin siyasi məqsədlər üçün istifadə edilməsinə son qoyulması üçün səylərin artırılması, o cümlədən dini tolerantlığın və multikultural dəyərlərin təşviq olunması, dini zəminli problemlərin həlli istiqamətində müzakirələrin aparılması üçün Avropa İttifaqı ilə birgə ekspertlərdən ibarət işçi platformanın yaradılması təklifini irəli sürüb.

# "DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK" KİTABININ ONLAYN TƏQDİMATI OLUB

əvvəli səh. 6

formada çatdırılmasının vacibliyinə toxunan F.Nurullayev bu baxımdan kitabın 4-cü fəslinə, o cümlədən "Din və təhsil" mövzusuna xüsusi diqqət çəkib.




Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov isə çıxışında vurğulayıb ki, son dövrlər sosial şəbəkələrdə təhlükəli xarakter alan informasiya mənbələrinə ciddi fikir verməк lazımdır. M.İsmayılov Fondun bu qəbildən olan kitabların nəşrinə xüsusi diqqət yetirdiyini deyib.

Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev, Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri Rasim Xəlilov və Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Asiya və Afrika ölkələri tarixi kafedrasının dosenti Atamoğlan Məmmədli çıxışlarında nəşrdə din sahəsindəki bir çox mühüm məqamlara toxunulmasını, eləcə də əsərin həm elmi, həm də tədris vəsaiti kimi əhəmiyyətini vurğulayıblar.

Kitabın həmmüəllifləri Aİl-nin İlahiyyat fakültəsinin dekan müavini Asəf Qənbərov və Dinşünaslıq kafedrasının müdiri Anar Qafarov ölkəmizin nümunəvi dövlət-din modelindən söz açaraq dinin siyasiləşdirilməsinin yolverilməz olduğunu qeyd ediblər. Kitabın bu baxımdan əhəmiyyətinə diqqət çəkərək nəşrdə dini təhlükəsizlik sahəsində baş verən proseslər və onların mahiyyəti, mövcud təhdidlər və onlarla mübarizə yollarının işıqlandırıldığını bildiriblər.




DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, din adına törədilən müharibələr, qaranlıq orta əsr faciələri və müasir münaqişələr dinin nüfuzuna xeyli ziyan vursa da, həm tarix, həm də bugünkü mənəvi böhran dini əvəz edəcək bir sistemin olmadığını göstərir. Ona görə də bəşəriyyət dini rədd etmək əvəzinə, yeni baxışlar formalaşdırmaq məcburiyyətindədir. Sədr müavini vurğulayıb ki, şüarçılıq, ümumi çağırışlar və danışıqlar cəmiyyətin kökündəki dini ziddiyyətləri aradan qaldırmaqda o qədər də səmərəli görünmür. Dini ixtilafın və münaqişənin qarşısının alınmasının yolu din haqqında anlayışların dərinləşdirilməsindən və yenilənməsindən keçir.

Səyavuş Heydərov diqqətə çatdırıb ki, sivilizasiyaların toqquşması deyil, ümumdünya sülhünün bərqərar olmasına yönəlmiş nəzəriyyənin meydana gəlməsi zərurətə çevrilib. O, ölkəmizin əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilən multikulturalizm, birgəyaşayış strategiyasının artıq dünya ictimaiyyətinin diqqətində olduğunu qeyd edib. Azərbaycanın dünyanın xilası üçün təqdim etdiyi strategiyanın sivilizasiyaların, mədəniyyətlərin və dinlərin birləşdiyi mərkəzlərdən birinə çevriləcəyinə əminliyini ifadə edib. Bu nəzəriyyənin təməlinin isə Prezident İlham Əliyevin memarı olduğu "Bakı prosesi" platforması ilə qoyulduğunu əlavə edib.

# GÜNDÜZ İSMAYILOV: RAMAZAN CƏMİYYƏTDƏ VƏHDƏT VƏ QARDAŞLIQ ANLAYIŞLARININ TƏBLİĞİ ÜÇÜN GÖZƏL FÜRSƏTDİR

İbadətlə yanaşı, birliyə və həmrəyliyə böyük önəm verən İslamın vəhdət və qardaşlıq dini kimi xarakterizə olunması təsadüfi deyil. Çünki dinimizin əsas məqsədi təkcə ibadət edən insan yetişdirmək yox, cəmiyyət, dövlət və ailə üçün faydalı olan, fərdilikdən daha çox, ictimai maraqları güdən və həmrəylik naminə toplumun ayrılmaz hissəsinə çevrilən nümunəvi vətəndaş formalaşdırmaqdır. Bu isə birlik və həmrəyliyə təkan verən qardaşlıq anlayışının cəmiyyətdə hansı səviyyədə yayılmasından və qəbul edilməsindən asılıdır. Bu baxımdan sülh, əmin-amanlıq ayı olan Ramazan cəmiyyətdə vəhdət və qardaşlıq anlayışlarının təbliği üçün həm böyük potensiala malikdir, həm də gözəl fürsətdir.



Şübhəsiz, güc birlikdən yaranır, birlik isə millidini nəticədir. Bu nöqteyi-nəzərdən bütün hallarda dəyişməz bir həqiqət var: biz cəmiyyətimizdə güclü birlik və qardaşlıq atmosferi formalaşdırmaq imkanına sahibik. Çünki həm müqəddəs kitabımız Qurani-Kərimin birlik və bərabərlik çağırışları, həm milli dəyərlərimiz, həm də xalq kimi ortaq xarakterik keyfiyyətlərimiz həmrəy olmağımız və birliyimizi gücə çevirməyimiz üçün böyük mənəvi bazis ola bilər.

Həmrəylik bizim üçün əsas şüar məqsədi deyil, son hədəfə – müqəddəs amala çatmağımız üçün əvəzedilməz, alternativsiz vasitədir. Çünki imperiyalar arasında bölüşdürülmüş, dəfələrlə təcavüzə məruz qalmış xalqımızın layiq olduğu kimi yaşaması, bir sözlə, böyük gələcəyimiz güclü həmrəyliyimizdən keçir. Bu baxımdan Ramazan həmrəyliyimizə – böyük uğura apara yolda bizə güclü təkan ola bilər.

İslamda qardaşlıq anlayışının sərhədləri təkcə ailəni yox, demək olar ki, cəmiyyətin bütün təbəqələrini əhatə edir. Hətta bir çox hallarda İslamdakı din qardaşlığı qan qardaşlığı anlayışını üstələyir. Deməli, dinimizin qardaşlıq anlayışına münasibəti bu məsələyə ənənəvi münasibətdən xeyli fərqlidir.

İslama görə, cəmiyyət eyni mənəvi və maddi dəyərləri paylaşan, ümumi maraqlar naminə vahid mövqedən çıxış edən böyük ailədir. Onun üzvləri sosial və mədəni statuslarından asılı olmayaraq, qardaşdırlar. Ən əsası, onlar aralarındakı qardaşlıq münasibətlərinə görə təkcə cəmiyyət və qanun qarşısında yox, həm də Allah dərgahında məsuliyyət daşıyırlar.

Qurani-Kərimdə müsəlmanları birliyə və həmrəyliyə çağıran, aralarındakı münasibətləri yalnız qardaşlıq prinsipi ilə tənzimləməyə təşviq edən kifayət qədər ayə var. Həmin ayələrdən birində – “Ali-İmran” surəsinin 103-cü ayəsində buyurulur: “Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah öz ayəsini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız”.

İslam tarixində qardaşlığın ən gözəl nümunələrinə peyğəmbərimiz Həzrət Məhəmmədin zamanında rast gəlinmişdir. Müsəlmanlar Həzrət Məhəmmədi təkcə Yaradanın göndərdiyi peyğəmbər yox, həm də qardaş kimi qəbul etmişlər. Peyğəmbərimiz də öz növbəsində onlarla qardaş kimi davranmış və bu sahədə ən gözəl örnək özü olmuşdur. O, hədisi-şəriflərindən birində buyurmuşdur: “Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm verməz, düşmənə təslim etməz. Din qardaşının ehtiyacını ödəyənin Allah da ehtyacını ödəyər. Müsəlmanın bir sıxıntısını aradan qaldıranın Allah da qiyamət günündə sıxıntısını aradan qaldırar. Bir müsəlmanın ayıbını örtənin, Allah da qiyamətdə ayıblarını örtər”. Peyğəmbərimizin başqa bir hədisində isə “Müsəlmanın (din) qardaşına təbəssümü də sədəqədir” buyurulmuşdur.

İslamda müsəlmanın din qardaşını sevməsi təkcə mənəvi borc sayılmır. Buna dinimizdə həm də inanc və iman məsələsi kimi baxılır. Çünki Peyğəmbərimiz buyurur: “İman etmədikcə cənnətə girə bilməzsiniz, bir-birinizi sevmədikcə iman etmiş olmazsınız”. Başqa bir hədisdə isə o, müsəlmanları canlı orqanizmə bənzədir: “Möminlər bir-birlərini sevməkdə, mərhəmətdə, şəfqətdə bir bədən kimidirlər. Bədənin bir üzvü narahat olduqda, digər üzvləri də bu iztiraba ortaq olarlar”.

İslamdakı qardaşlıq anlayışını cəmiyyətin yalnız müsəlman təbəqəsinə aid etmək də doğru deyildir. Əgər hansısa cəmiyyətdə müsəlmanlarla yanaşı, digər dinlərin mənsubları mehriban yaşayırlarsa, onların ortaq dəyərləri və maraqları varsa, deməli, qardaşlıq anlayışı onları da əhatə edir. Bunun ən gözəl örnəyi Azərbaycan xalqı və Azərbaycan cəmiyyətidir.

Tarix boyu Azərbaycan ərazilərində müxtəlif dinlərin və xalqların nümayəndələri birgə, mehriban qardaşlıq və dostluq şəraitində yaşamış, onların fərqli inanclara mənsub olmaları bu qardaşlığa zərrə qədər də xələl gətirməmişdir. İslam Vətənimizdə yayıldıqdan sonra bu qardaşlıq daha da möhkəmlənərək, xalqımızın mənəvi dəyərinə, cəmiyyətimizin inkişafı üçün əsaslı zəminə və ölkəmizdəki sabitliyin zəmanətinə çevrilmişdir. Deməli, bu gün hər birimizin üzərinə düşən bir vəzifə var: gələcəyimiz və rifahımız naminə qardaşlığımızı qorumalı və daha da möhkəmləndirməliyik.

Qoy Ramazan bunun başlanğıcı və müjdəçisi olsun!!!

**kiriminsesigazetesi.com**

# "XXI ƏSRDƏN BAXIŞ: DİN VƏ QADIN"

Aprelin 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “XXI əsrdən baxış: din və qadın” mövzusunda videokonfrans keçirilib.

Videokonfransa təşkilatçı qurumların nümayəndələri, rayonun aktiv qadınları, təhsil işçiləri və gənclər qatılıblar.

Quba Rayon İcra Hakimiyyəti başçısı Aparatının Humanitar və ictimai-siyasi məsələlər şöbəsinin baş məsləhətçisi Aynur Yəhyayeva erkən nikahların qarşısının alınması istiqamətində rayonda görülən işlərdən danışaraq bu problemin həllində cəmiyyətin üzərinə mühüm rol düşdüyünü qeyd edib. Bildirilib ki, erkən nikah körpə və ana ölümünə, qızların təhsil imkanlarının azaldılmasına, onların cəmiyyətdən təcrid edilməsinə səbəb olur. Sözügedən problemlərin həllində başlıca rolu qadınların bu istiqamətdə maarifləndirilməsi təşkil edir.

DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova çıxışında İslam dininin qadına verdiyi dəyərə, Azərbaycanda qadının cəmiyyətdə fəallığının artırılması üçün atılan mühüm addımlara diqqət çəkərək bildirib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizin ictimai və siyasi həyatındakı fəal iştirakı Azərbaycan qadınının tarixi missiyasını bu gün də uğurla davam etdirdiyini göstərmək üçün kifayət edir. Milli-mənəvi dəyərlər sistemimizin təşəkkülündə və yaşadılmasında qadınlarımızın böyük rolu olduğunu bildirən şöbə müdiri bu dəyərlərin təbliğində qadınların, ələxsus anaların üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb. O, Azərbaycan qadınının tərbiyəsinin gücünə 44 günlük Vətən müharibəsində şahid olduğumuzu, Ali Baş Komandanımızın başçılığı ilə analarımızın, Azərbaycan



qadınlarının böyüdüb başa çatdırdığı igid oğullar sayəsində zəfər çaldığımızı qeyd edib. E.Kərimova, eyni zamanda çıxışında qızların təhsildən yayınması və erkən nikah kimi problemlərə də toxunub.

“Erkən nikah və onun fəsadları” mövzusunda təqdimatla çıxış edən DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva erkən nikahla bağlı statistik göstəriciləri videokonfrans iştirakçılarının nəzərinə çatdırıb. Erkən nikahın mənfi təzahürlərinə diqqət çəkən şöbə müdiri xəstə uşaqların dünyaya gəlməsi, məişət zorakılığı, fiziki-psixoloji çətinliklər barədə danışıb. Bu problemlərin qızların cəmiyyətin fərdi kimi inkişafına mane olduğunu, onları təhsil hüququndan məhrum etdiyini bildirən natiq erkən nikah problemini aradan qaldırmaq üçün həyata keçirilən tədbirlərin əhəmiyyətinə toxunub. Bildirib ki, bu istiqamətdə maarifləndirmə işlərinə gənclərlə yanaşı, valideyn və din xadimlərinin də cəlb edilməsi xüsusi önəm daşıyır. Həm tibbi, həm dini, həm də elmi cəhətdən məlumatlanan valideyn övladını erkən nikaha məcbur etməyin hansı fəsadlara gətirib çıxaracağını anlayacaqdır.

Quba şəhəri H.Hüseynov adına 4 saylı humanitar fənlər təmayüllü məktəb-liseyin direktoru Xanımsona Əkbərova milli-mənəvi, dini dəyərlərimizin gələcək nəslə düzgün formada, təhrifə uğramadan ötürülməsinin əhəmiyyəti barədə danışıb. O, kompleks maarifləndirmə sayəsində ra-yonda erkən nikah üzrə statistikada azalma müşahidə edildiyini deyib.

DQİDK-nın əməkdaşı Aysel Abdullayeva isə çıxışında maarifçilik yolunda qadınların roluna toxunub. Təqdimatında öncül Azərbaycan qadınlarından nümunələr gətirən natiq qadınların təhsilli olmasının vacibliyini vurğulayıb.

Videokonfrans müzakirələrlə yekunlaşıb.




2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyada özündən söz etdirməyi bacardı. Əminliklə deyə bilərəm ki, bu məğrurluğun əsasında dayanan ən mühüm amil xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə “mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır” deyə bilməsi durur. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq çox böyük bir tarix yazdılar. Ümumiyyətlə, torpağı vətən edən, onu müqəddəsləşdirən, özünü bu yolda qurban verən şəhidlərdir. Bu səbəbdən, onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, “Cəmiyyət və Din” qəzeti 2021-ci ilin ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.

## Abasov Ruslan Hikmət oğlu



Şəhid Abasov Ruslan Hikmət oğlu 2000-ci il mayın 25-də Bakı şəhərində anadan olub. O, 2006-cı ildə Bakı şəhəri Qaradağ rayonu Əliheydər Kazımov adına tam orta məktəbin birinci sinfinə gedib. 2017-ci ildə həmin məktəbi bitirib. Ruslan 2019-cu ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Bakı şəhəri Qaradağ rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. Uşaqlıqdan ən böyük arzusu ön cəbhədə xidmət etmək olan qəhrəmanımız Silahlı Qüvvələrin Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Daha sonra Beyləqan rayonunda hərbi qulluğuna davam edib. O, hər zaman nümunəvi xidməti ilə seçilib və dəfələrlə fəxri fərmanlara layiq görülüb.

2020-ci ilin 27 sentyabrında mənfur düşmənlərimizin hücumu zamanı əks-hücum əməliyyatına başlayan ordumuzun əsgəri olan Ruslan elə ilk döyüşdən göstərdiyi igidliklərlə komandirlərinin və döyüş yoldaşlarının diqqətini cəlb edib. 27 sentyabrdan 14 oktyabradək Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak edib və Suqovuşanı düşmən tapdağından azad edən qəhrəmanlarımızdan biri kimi adını tarixə yazıb. Şəhidimizin döyüş yoldaşları onu qorxmaz, ölümün gözünə dik baxan igid kimi xarakterizə edirlər. Xasiyyətcə sakit, mülayim insan olan Ruslan döyüşdə olduğu müddətdə ailəsinin narahat olmağını istəməyib. Anası Leyla Məmmədovanın sözlərinə görə, onunla hər danışığımızda hər şeyin yaxşı olduğunu deyir, qələbə ilə irəlilədiklərini söyləyirdi. Ancaq oktyabrın 14-də Füzuli rayonu ərazisində növbəti döyüşlərin birində Ruslan böyük şücaət göstərərək şəhid olub. O, oktyabrın 16-da Lökbatan qəsəbəsinin Şəhidlər Xiyabanında uğrunda canı fəda etdiyi Vətən torpağına tapşırılıb.

Ruslan ailənin yeganə övladı idi.

Adı tarixə həkk olunan qəhrəmanlarımızdan olan əsgər Abasov Ruslan Hikmət oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə “Vətən uğrunda” və “Füzulinin azad olunmasna görə” medalları ilə təltif edilib.

## Abbaslı Munis Həbibullah oğlu



Şəhid Abbaslı Munis Həbibullah oğlu 2000-ci il martın 18-də Beyləqan şəhərində dünyaya gəlib. O, 2006-cı ildə Fərman Hacıyev adına Beyləqan şəhər 2 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub. Səmimi və xoş xasiyyəti ilə hər kəsin sevimlisinə çevrilən Munis uşaqlıqdan sərbəst güləşlə məşğul olub. O, 2010-cu ildə Xocəvənd şəhidlərinə həsr edilmiş yarışda I yer tutub. 2017-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. Munis 2018-ci ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Beyləqan rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. O, Sərhəd Qoşunlarının Qəbələ rayonunda yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmət edib. Uşaqlıqdan hərbiyə marağı olan Munis həm də yüksək əsgəri keyfiyyətlərə malik idi. Hər zaman verilən tapşırıqları dəqiq və vaxtında yerinə yetirən qəhrəmanımız qüsursuz xidməti ilə seçilib. 2019-cu il oktyabrın 2-də xidmətini başa vuran Munis qısa müddət sonra “Azərpambıq ASK” MMC-nin Beyləqan pambıq emalı zavodunda yanğından mühafizə xidmətində işə düzəlib. O, həm işləyir, həm də ali təhsil almaq üçün hazırlaşırdı.

2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər bir çoxu kimi Munisə də təsir edib, onun gələcəklə bağlı planlarının dəyişməsinə gətirib çıxarıb. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, SHXÇDX-ya ərazi bütövlüyü uğrunda başlayacaq mümkün müharibədə iştirak etmək üçün müraciət edib və müvafiq formada qeydiyyata alınıb. 2020-ci ilin avqustunda isə qəbul imtahanlarında iştirak edən qəhrəmanımızın arzusu hərbi xidmətə yollanmaq idi. Həmin vaxt müddətdən artıq xidmət etmək üçün kurs təşkil olunduğunu eşidən Munis sənədlərini “Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı” kursuna verib. Kursu keçib avqustun 25-də Silahlı Qüvvələrin Beyləqan rayonunda yerləşən "N" saylı motoatıcı hərbi hissəsinin Piyadanın Döyüş Maşını (PDM-3) taborunda PDM-li manqada baş atıcı vəzifəsində xidmətə başlayıb. Hərbi qulluğunun ilk iki həftəsini təlimlərdə iştirak edib və verilən tapşırıqların öhdəsindən uğurla gəlib.

2020-ci ilin sentyabrın 27-də Ermənistanın növbəti təxribatından sonra ordumuz əks-hücum əməliyyatına başlayarkən Munis də xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli rayonunun Alxanlı kəndi istiqamətindən döyüşlərə qatılıb. İlk gündən onun heyəti olduğu PDM düşmənin illərdir möhkəmləndiyi müdafiə səddlərini keçib onların mövqelərini darmadağın edirdi. Munis imkan tapdıqca ondan nigaran qalan ailəsi ilə telefon bağlantısı yaradır, onları narahat qoymamağa çalışırdı. Növbəti zənglərinin birində isə Munis Ağdam Dövlət Kollecinə qəbul olduğunu öyrənir. Bu xəbərə çox sevinən qəhrəmanımız müharibədən sonra təhsilini davam etdirmək istəyirdi. Füzuli, Cəbrayıl, Xocavənd rayonları ərazilərində gedən döyüşlərdə iştirak edən Munis, həm də yaralı döyüş yoldaşlarına kömək edir, onları döyüş meydanından çıxarırdı. Oktyabrın 13-də sonuncu dəfə ailəsi ilə danışan qəhrəmanımız sanki şəhadətini hiss edibmiş kimi, anasından halallıq istəyib. Səhəri gün saat 10:00 radələrində Füzuli rayonu ərazisində düşmənin mövqelərini ələ keçirmək üçün döyüşərkən onların yaxınlığına minomyot mərmisi düşüb. Munis də daxil olmaqla 5 nəfər hərbçimiz şəhid olub. Yaxınlarının sözlərinə görə, şəhid olmaq elə bil ki, ona hələ orta məktəb illərindən məlum imiş. O, məzun olanda bir dostu köynəyinə belə yazıb: “Ən böyük arzun şəhid olmaqdır. Səni o zirvəyə yüksələsən”. O, da aşağısından “İnşallah” yazıb. Munis oktyabrın 15-də Beyləqan rayonunun Şəhidlər Xiyabanında uğrunda canını fəda etdiyi vətən torpağına tapşırılıb.

Şəhidimiz subay idi. Ailədə iki bacı, bir qardaş olublar.

Cəsarəti və qəhrəmanlığı ilə adını vətən tariximizin şanlı səhifəsinə yazan əsgər Abbaslı Munis Həbibullah oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə “Vətən uğrunda” və “Füzulinin azad olunmasna görə” medalları ilə təltif edilib.

## Abbasov Aysənan Əsgər oğlu



Şəhid Abbasov Aysənan Əsgər oğlu 1992-ci il iyunun 29-da Tərtər rayonunun Seydimli kəndində dünyaya gəlib. O, 1998-ci ildə Fəxrəddin Orucov adına Seydimli kənd tam orta məktəbin 1-ci sinfinə qəbul olub. Uşaqlıqdan hərbçi olmaq istəyən qəhrəmanımız orta məktəbin 8-ci sinfini bitirdikdən sonra təhsilini Cəmşid Naxçıvanski adına hərbi liseydə davam etdirmək qərarına gəlir. Lakin sağlıq durumu ilə əlaqədar bu istəyini reallaşdıra bilmir. Aysənan 2009-cu ildə sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (AAHM) verir. Ancaq bu dəfə də tibbi komissiyadan keçə bilmir. 2010-cu ildə iyulunda Tərtər rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, Silahlı Qüvvələrin Beyləqan rayonunda yerləşən “N” saylı hərbi hissəsində xidmət edib. Ən böyük arzusu hərbçi olmaq olan qəhrəmanımız hərbi qulluğunu başa vurduqdan 2 il sonra sənədlərini “Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı” kursuna verib. Kursu uğurla bitirərək Tərtər rayonununda yerləşən “N” saylı hərbi hissənin kəşfiyyat taborunda mühəndis-istehkam manqa komandiri vəzifəsinə təyinat alıb.

Şəhidimiz 2016-cı ildə Aprel döyüşləri zamanı qısa müddət ərzində Talış kəndi ətrafındakı yüksəkliklərin azad olunmasında yaxından iştirak edib. Göstərdiyi xidmətlərə görə fəxri fərmanla təltif olunub. 2017-ci ildən isə xidmətini Goranboy rayonununda yerləşən “N” saylı hərbi hissədə davam etdirib.

27 sentyabr 2020-ci ildə Goranboy istiqamətindən döyüşlərə qatılan Aysənan mühəndis-istehakmçı kimi ən öndə hərəkət edir və üzərinə düşən işin öhdəsindən yüksək səviyyədə gəlib. Ancaq sentyabrın 30-da Goranboy rayonunun Gülüstan kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirən qəhrəmanımızdan ailəsi xəbər tuta bilmir. Onun adı itkin düşmüş hərbi qulluqçularımızın siyahısına daxil edilir. Yalnız qələbədən sonra dekabrın 11-də Aysənan şəhid olması təsdiqlənir. Şəhidimiz dekabrın 12-də Seydimli kəndində uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Aysənan evli olub. Onun bir qız, bir oğul övladı var.

İgidliyi və cəsurluğu ilə adını vətən tariximizin şanlı səhifəsinə yazan Abbasov Aysənan Əsgər oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamı ilə “Vətən uğrunda” medalı ilə təltif edilib.

***Hazırladı: Ramil Hikmət***

# ALLAHSIZLAR VƏ CƏZALARI

**Giriş**

*Yazıma hansı səbəbdən bu başlığı seçdiyimi və bundan sonra yazacaqlarımı əsaslandırmaq üçün girişi müqəddəs kitablardan seçmə kəlamlar ilə başlayıram.*

*"... hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur..."*

***(Qurani-Kərim, "Maidə" surəsi, 5)***

***

*"Nə bəxtiyardır sülhyaradanlar!*
*Çünki onlar Allahın övladları adlanacaq".*

***(İncil, Matta 5:9)***

***

*"İsa ona dedi: "Qılıncını yerinə qoy, çünki qılınc çəkənlərin hamısı qılıncla məhv olacaq".*

***(İncil, Matta 26:52)***

***

*"Məhəbbət səbirli, xeyirxahdır. Məhəbbət paxıllıq etməz, öyünməz, lovğalanmaz, kobudluq etməz, öz xeyrini güdməz, hirslənməz, ona edilən pislikləri sayıb-hesablamaz. Məhəbbət haqsızlığa sevinməz, həqiqətə isə şadlanar. O, hər şeyə qatlaşar, hər şeyə inanar, hər şeyə ümid bəsləyər, hər şeyə dözər".*

***(İncil, Paulun Korinflilərə Birinci Məktubu 13:4-7)***

***

*"Tövrat"da qeyd olunan 10 əmrdə isə insan öldürməyin günah olması ilə bağlı belə bildirilir: "Adam öldürmək olmaz" (bax: Tövrat, Təsniyə, 10:1-5).*

Uzun müddət belə bir fikir formalaşmışdı ki, ermənilər məğlubedilməzdir (güclü erməni diasporunun, çoxsaylı olduqca varlı erməni iş adamlarının, inkişaf etmiş Qərb dövlətlərinin (Fransa, ABŞ və d.), Rusiyanın, xristian həmrəyliyinin və s. Ermənistana güclü dəstəyi nəticəsində). Lakin 44 günlük Vətən müharibəsi bu mifi dağıtdı - son 30 ildə formalaşan "məğlubedilməz erməni ordusu"nu ermənilərin zəif hesab etdikləri ordu - müzəffər Azərbaycan ordusu müzəffər Ali Baş komandan cənab İlham Əliyevin komandanlığı ilə darmadağın etdi. Nəticədə 30 ilə yaxın işğal altında olan torpaqlarımız işğaldan azad olundu. Bu vaxt belə sual oluna bilər - nə səbəbdən "məğlubedilməz" erməni ordusu məğlub oldu, "zəif" Azərbaycan ordusu isə qalib gəldi? Düzdür, müasir silahlarla silahlanmış qəhrəman əsgər və zabitlərimizin yüksək peşəkarlığı, vətənpərvərliyi sayəsində, onların qanı və canı bahasına qələbə qazanıldı. Lakin mən hesab edirəm ki, bu Qələbə haqq iş uğrunda döyüşən, qələbənin səbəbkarları - Ali Baş komandan İlham Əliyev başda olmaqla müzəffər Azərbaycan ordusuna, bu işə dəstək verən düzgün niyyətli və əməlli insanlara, Allahsevər Azərbaycan xalqına Allah tərəfindən verilən töhfədir. Qələbənin əksi - məğlubiyyət isə çoxsaylı cinayətlər törətmiş (Allahın günahsız bəndələrinin, əsasən türk mənşəli insanların dini və milli fərqliliyinə görə xüsusi amansızlıqla qətlə yetirilməsi), anormal psixologiyalı (nəyin bahasına olur-olsun, heç vaxt olmayan "Böyük Ermənistan" yaratmaq), pis niyyətli və əməlli (bütün Allaha inanan xalqların Allahın evi kimi qəbul etdikləri məscidlərin dağıdılması, murdarlanması) və s. bu kimi bir çox erməninin törətdikləri əxlaqsızlıqlara görə Allahın erməni xalqına verdiyi cəzadır. Dünyanın əksər ölkələrində "Allah bəndələrinin ömrünə Allah tərəfindən xitam verilməlidir" prinsipinə uyğun olaraq, hətta ən qatı cinayətkarlar da ölüm cəzasına məhkum olunmur, ömürlərinə insanlar tərəfindən deyil, ömürlük həbs cəzasına məhkum edilərək Allah tərəfindən xitam verilir. Lakin allahsızlar dünyanın bu təməl prinsipini pozaraq günahsız insanları qətlə yetirirlər. Bir sözlə, mənim əqidəmcə, istənilən şəraitdə (müharibə və cəbhəyanı ərazilər də daxil olmaqla) günahsız mülki insanların öldürülməsi ALLAHSIZLIQDIR və Allah gec-tez bunun cəzasını verir.

**Yazının mənbələri.** Dediklərimin doğruluğunu təsdiq etmək üçün canlı şahidi olduğum 44 günlük Vətən müharibəsi vaxtı və tarixini diqqətlə öyrəndiyim birinci Qarabağ müharibəsi, həmçinin XX əsrin əvvəllərindən baş verən allahsız erməni cinayətləri haqqında olan və müxtəlif mənbələrdən aldığım bəzi məlumatları xronoloji qaydada ərz edəcəyəm.

**Məlumatlar və faktlar.** Çoxsayli faktlar təsdiq edir ki, 1905 və 1918-ci illər ərzində ermənilər Azərbaycanın bütün bölgələrində (Bakı, Şamaxı, Quba, Xaçmaz, Lənkəran və s.) günahsız mülki əhalini qətlə yetirib. Həmin vaxtlar onminlərlə azərbaycanlı - kişilərlə yanaşı, qadınlar, uşaqlar, qocalar da vəhşicəsinə öldürülüb, yandırılıb, doğranıb, diri-diri torpağa basdırılıb. Quba məzarlıqları bunun əyani timsalıdır. Bu səbəbdən 31 mart hər il Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilir. Allah bu haqsızlığın əvəzini ermənilərdən qardaş türk ordusunun müzəffər fəaliyyəti ilə aldı. Günahsız insanların qanı yerdə qalmadı və inşallah, heç vaxt qalmayacaq. 1919-cu il ərzində 72% azərbaycanlı, 28%-i erməni əhalisi olan Zəngəzura erməni basqınları nəticəsində azərbaycanlıların bu bölgədən çıxarılmasına başlanılır. Nəticədə 100-dən çox azərbaycanlı kəndi məhv edlir, allahsız ermənilər tərəfindən qətlə yetirilən günahsız mülki əhalinin sayı 10 minə çatır.



SSRİ dövründə milli məsələyə çox ciddi yanaşıldığı üçün ermənilər milli məsələlər üzrə sivil qayda-qanunlara əməl etməyə məcbur idilər. 1990-cı illərin sonlarında SSRİ-də baş qaldıran xaosdan istifadə edən ermənilər şovinist, irqçi şüarlar səsləndirməyə başladılar. 1988-ci il fevralın 21-də Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin yalnız erməni deputatlarından ibarət növbədənkənar, legitim olmayan iclasında vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə daxil edilməsi haqqında qərar qəbul olundu. Bu qərara qarşı 22 fevral 1988-ci ildə silahsız dinc yolla yürüş edən azərbaycanlılardan ibarət mitinqçilərə azğın ermənilər odlu silahdan atəş açdılar. Nəticədə iki günahsız azərbaycanlı - Əli Hacıyev və Bəxtiyar Quliyev şəhid oldular. Allahın bu günahsız insanlarını öldürən ermənilər yəqin ki, rəsmi orqanlar tərəfindən olmasa da, Allah tərəfindən cəzalarını alıblar. Mütləq alıblar. Sonrakı illərdə allahsız ermənilər daha da həyasızlaşaraq Dağlıq Qarabağdakı azərbaycanlı əhaliyə qarşı əsl soyqırımı həyata keçirdilər. Demək olar ki, azərbaycanlılar yaşayan bütün yaşayış məntəqələri dağıdıldı və yandırıldı. Xankəndidə yerləşən 366-cı alayın rus hərbi qulluqçularının və hərbi texnikalarının köməyi ilə ermənilər Xocalıda XX əsrin ən faciəvi hadisələrindən birini - azərbaycanlıların soyqırımını törətdilər.

26 fevral 1992-ci ildə XX əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımında vəhşiləşmiş, insani hisslərdən uzaq olan erməni allahsızları 613 nəfər dinc sakini xüsusi amansızlıqla qətlə yetiriblər. Bunlardan 106-sı qadın, 63-ü uşaq və 70-i ahıl, yaşlı insanlar idi. 1000-dən çox insan yaralanıb, 1275 sakin girov götürülüb. Onların 150 nəfərindən bu günə kimi məlumat yoxdur. Allah bu allahsızlığı törədənlərin cəzasını verir və verəcək. Beynəlxalq təşkilat və beynəlxalq məhkəmələrdə Xocalıda törədilmiş bu cinayəti insanlığa qarşı ağır cinayət kimi qəbul edirlər.

Xocalı soyqırımı o qədər ağır və dəhşətli bir allahsızlıq və vəhşilik aktıdır ki, dünya ölkələri də buna biganə qala bilmirlər. Belə ki, İslam Əməkdaşlıq Təşkilatına daxil olan 7 ölkə Xocalı soyqırımını rəsmi olaraq qəbul edib. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Hersoqovina, Rumıniya, Çex Respublikası, Sudan, İordaniya, Honduras, Qvatemala, Panama, Sloveniya, Cibuti parlamentləri də Xocalı soyqırımını beynəlxalq hüquq normaları müstəvisində tanıyıblar. ABŞ-ın 21 ştatının qanunverici orqanlarında da müvafiq qətnamələr qəbul edilib.

Ümumiyyətlə, Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına görə, Birinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, 3860 Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Sual olunur: 3860 insan necə itə bilər? Çox yəqin ki, allahsız erməni cəlladları bu insanları amansız-casına, işgəncələrlə öldürüblər və naməlum yerlərdə basdırıblar.

Xocalı soyqırımının əsas ideoloq və ruhverənlərdən biri olan Erməni Kilsəsi Qarabağda 5 yoxsul erməni ailəsinə yardım göndərib. Onlardan biri çoxuşaqlıdır. Bəli, uşaqlar Allahın tam günahsız bəndələri olduqları üçün onlara yardım etmək mütləq lazımdır. Xocalıda da azərbaycanlı uşaqlara kömək etmək lazım idi. Lakin azərbaycanlı uşaqlar Xocalıda uzun müddət blokada şəraitində ac saxlandılar və sonra vəhşiləşmiş erməni allahsızları tərəfindən öldürüldülər. Onda Erməni Kilsəsi yaddan çıxardı ki, bu uşaqlar da Allahın günahsız varlıqlarıdır. Çox təəssüf ki, bir televiziya verilişində də erməni keşişinin insan sevməzliyinin bir nümunəsini - İrəvanda keçirilən hərbi paradda ölüm saçan hərbi texnikalara xeyir-dua verdiyini görmüşəm. Məncə, dinindən asılı olmayaraq Allah adamları insansevər olmalıdırlar. Təəssüf ki, ermənilərin bir çox liderləri tam əksinə düşünür və fəaliyyət göstərirlər. Məsələn, Ermənistanın ikinci prezidenti Robert Köçəryan 16 yanvar 2003-cü il tarixində Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında çıxışı zamanı azərbaycanlıların və ermənilərin "etnik və genetik baxımdan uyğunsuz" olduqlarını söyləmişdir. Bu, faşizmin, irqçiliyin, dözümsüzlüyün bir nümunəsidir. Bu azmış kimi, R.Köçəryan Dağlıq Qarabağda döyüşlərdə iştirak etdiyi ilə qürur duyduğunu da demişdi. Hansı ki, bu döyüşlərdə günahsız dinc azərbaycanlılar, kişilərlə yanaşı, qadın və uşaqlar, qocalar da xüsusi amansızlıqla qətlə yetirilib.

davamı səh. 11

# ALLAHSIZLAR VƏ CƏZALARI

əvvəli səh. 10

Həmin vaxt Avropa Şurası Parlament Assambleyasının sədri Peter Şider Avropa Şurasının yarandığı gündən bu yana "etnik uyğunsuzluq" ifadəsini eşitmədiyini söyləmişdi. Bəli, budur erməni xisləti, erməni insan sevməzliyi, erməni allahsızlığı. İngilis jurnalisti Tomas de Vaala verdiyi bir müsahibəsində Ermənistanın üçüncü prezidenti Serj Sarqsyan da Xocalı qətliamını etiraf edib. Həmin vaxtı hərbi komandir kimi mülki əhalinin vəhşicəsinə öldürülməsini Azərbaycana göz dağı vermək və Azərbaycan xalqının əzmini qırmaq üçün olduğunu özü etiraf edib. Postsovet ölkələri üzrə mütəxəssis Neyl Vatsonun fikrincə, nasist müharibə cinayətkarları ahıl yaşlarında belə, Beynəlxalq Cinayət Məhkəməsinə gətirildiyi kimi, bu müharibə cinayətkarları da cinayətlərinin əvəzini ödəməli və ömürlərinin qalan hissəsini həbsxanalarda keçirməlidirlər. İnşallah bunu da görəcəyik. O da bəllidir ki, bir çox Xocalı cəlladları igid Azərbaycan oğulları tərəfindən Allahın köməyi ilə məhv ediliblər. İnşallah yerdə qalanlar da məhv olacaqlar. Mütləq məhv olacaqlar. Allah insanlığa qarşı bu vəhşiliyi heç vaxt qəbul etməyəcək. Geci-tezi var. Məsələn, bilirik ki, bu allahsızların cəzalarını Allah Lələtəpədən başlayaraq verdi. Belə ki, bu döyüşdə ermənilərin təxminən 600 ölü, yüzlərlə yaralanan, 17 tank və s. itkisi oldu.

44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş komandan İlham Əliyevin komandanlığı ilə müzəffər Azərbaycan ordusu tərəfindən məğlub olduqlarını görən, lakin qəbul edə bilməyən erməni allahsızları və cəlladları yenə də Azərbaycan xalqının əzmini qırmaq, onları qorxudub əzəli dədə-baba yerlərindən qaçırtmaq üçün cəbhə xəttindən kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı şəhər, rayon, qəsəbə və kəndlərimizi artilleriya və minaatanlardan atəşə tutub. Hətta qadağan olunmuş kassetli döyüş sursatlarından, tərkibində ağ fosfor olan mərmilərdən, ballastik raketlərdən də istifadə ediblər. Nəticədə, Gəncə şəhərində, Tərtər və Bərdə rayonlarında və s. yaşayış yerlərində 100 günahsız mülki əhali erməni allahsızlığının və faşistliyinin qurbanı oldu. Bunlardan 12-si uşaq, 27-si qadındır. 54-ü uşaq olmaqla 414 mülki şəxs yaralanıb. 4 uşaq hər iki valideynini itirib. Ermənilər Allahı unutmaqla bərabər, mühüm beynəlxalq qanunları da pozurlar. Belə ki, Cenevrə konvensiyaları və onların əlavə protokollarının, xüsusilə "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında IV Cenevrə Konvesiyası"nın, "Uşaq hüquqları haqqında" Konvensiyanın və insan hüquqları sahəsində digər beynəlxalq sənədlərin müddəalarını kobud şəkildə pozublar. Bunun müqabilində Azərbaycan ordusu nə edir? Heç bir mülki, yaşayış obyektlərini bombalamadılar. Hətta məktəblər, uşaq bağçaları və s. mülki obyektlər erməni silahlıları tərəfindən hərbi obyektlər kimi istifadə olunmasına baxmayaraq, həmin obyektlər bombalanmadılar. Hətta ermənilərin qoyub qaçdıqları qocalar Beynəlxalq Qırmızı Xaç cəmiyyətinin vasitəçiliyi ilə Ermənistana təhvil verildi. Allahsızlıq və qeyri-insanilik o səviyyəyə çatmışdı ki, ermənilər bu qocaların qəbulundan imtina edirdilər.

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsində erməni ekspertlərinin hesablamalarına görə, ermənilərin ümumi itkiləri 38,4 milyatd dollar həcmində qiymətləndirilir və itkilərə görə Nikol Paşinyanı günahlandırırlar. Lakin yaddan çıxarırlar ki, təxmini hesablamalara görə, ermənilər tərəfindən Qarabağın işğalı zamanı Azərbaycan iqtisadiyyatına təxminən 10 milyardla dollar ziyan dəyib. Allah bu vəhşiliyi götürməyib, cinayətkarların cəzasını verir və inşallah verəcək. Hərbi sahədə erməni ordusunun 125 artilleriya topu, 366 tankı, 7 "s-300" zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksi, 522 yük avtomaşını, 5 "SU-25" təyyarəsi, 116 piyadaların döyüş maşını, 103 xüsusi avtomobil, 10 traktor, 1380 atıcı silah, 11 sursat anbarı və digər texnikaları məhv edilib və ya qənimət kimi götürülüb. Beləliklə, 44 günlük müharibə dövründə faşist təmayüllü Ermənistan ordusu, demək olar ki, məhv edilib. Ermənilər də məhv ediblər və qənimət götürüblər. Lakin nəyi? İşğal olunmuş Azərbaycan rayonlarını, qəsəbələrini, kəndlərini, məktəblərini, kitabxanalarını, kinoteatrlarını, Allah evi olan məscid və kilsələrini və s. yaşayış və qeyri-yaşayış obyektlərini məhv ediblər. Qənimət kimi həmin tikililərin pəncərə və qapılarını, dam örtüklərini, metal-taxta materiallarını və s. də aparıblar. Apara bilmədiklərini dağıdıb, yandırıblar. Yəni işğal olunmuş Azərbaycan ərazilərində "yandırılmış torpaq" siyasəti yürüdüblər. Bu iyrənc siyasət Azərbaycan Müdafiə Nazirliyinin Ağdam, Zəngilan, Cəbrayıl, Qubadlı, Füzuli, Zəngilan, Laçın, Kəlbəcər və Şuşa şəhərlərinin işğalı əks etdirən video materiallarından da görünür. Ümumiyyətlə, azərbaycanlıların əsrlər boyu yaşadıqları indiki Ermənistan ərazisindən və işğal edilmiş torpaqlardan bir milyondan artıq soydaşımız qovularaq didərgin salınıb. Etnik təmizləmə aparılıb. Onminlərlə günahsız insan erməni allahsızlığının, vəhşiliyinin qurbanı olub.

Allahsızlar, hətta qəbiristanları da dağıdıblar, məhv ediblər. Qəbirləri ekskavatorla qazıb, cəsədləri çıxarıblar, qızıl axtarıblar. Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin təbirincə, "Qəbirlərin dağıdılması vandalizmin ən iyrənc formasıdır". Bu yerlərə səfər etmiş xarici jurnalistlərin və diplomatların təbirincə desək, Xirosimo kimi, atom bombası partlaması nəticəsində məhv olmuş yerlərə bənzəyir. Bir çoxu bu müdhiş mənzərə qarşısında göz yaşlarını saxlaya bilməyiblər. Budur erməni xisləti.

Allah evləri olan məscid və kilsələrə münasibətdə Azərbaycan dövləti və vətəndaşları fərq qoymurlar. Məscidlərlə yanaşı, kilsələr də Allah evi kimi qorunur və təmir edilir. Məsələn, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə Rusiyada Xristianlığın qəbul edilməsinin 1025 illiyinə və Həştərxanın təməlinin qoyulmasının 455 illiyinə həsr edilən müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsinin ucaldılması bu faktların sırasındadır. Azərbaycan dövlətinin dəstəyi ilə Vatikanda yerləşən Müqəddəs Sebastian katakombaları, Fransanın Orn departamentinin Santiyi, Frensay o Sovaj, San-iler la Jerar, Tanvil, Kurjust, Revonoy və Mal yaşayış qəsəbələrindəki X-XII əsrlərə aid 7 kilsə bərpa edilib. Həmçinin son 20 ildə Rus Pravoslav Baş Kafedral kilsəsi, Xilaskar Yevangelik lüteran kilsəsi, Gəncə şəhərindəki Aleksandr Nevski Rus Pravoslav kilsəsi də dövlət tərəfindən təmir edilib, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa olunub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə Fond Vatikanda Müqəddəs Pyotr Kilsəsində "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefini bərpa edib.

Həmçinin Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış "Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş" çərçivəsində Roma şəhərində Müqəddəs Marçelino və Pietro katakombaları bərpa edilib. "Tolerantlığın ünvanı –Azərbaycan" layihəsi çərçivəsində Qəbələdəki Çotari alban–udi və Bakıdakı Pravoslav kilsələri təmir olunub. Bakıda Müqəddəs Məryəm kilsəsi inşa edilib. Həmçinin, 2020-ci ildə Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa olunub.

Bu işlər bir daha ermənilərdən fərqli olaraq, azərbaycanlıların ümumbəşəri dəyərlərə, Allah evlərinə sevgisini təcəssüm etdirir. Ermənilər işğal olunmuş ərazilərdə 67 məscidin ikisi istisna olmaqla, hamısını dağıdıb, məhv ediblər və ya tövlə, silah anbarı və s. kimi müqəddəs Allah evinə layiq olmayan təyinatlar üzrə istifadə ediblər. Lakin Bakı şəhərinin mərkəzində yerləşən erməni kilsəsi Azərbaycan dövləti tərəfindən bərpa edilib və qorunur. Azərbaycanın yüksək səviyyəli dövlət qurumları bildirir ki, işğaldan azad olunmuş ərazilərdəki müsalman abidələri ilə yanaşı, xristian mirası da mənşəyindən asılı olmayaraq, yüksək səviyyədə qorunacaq, bərpa ediləcək və istifadəyə veriləcək. Bax, budur, Allaha inam və Allah sevgisi.

Təsadüfi deyil ki, Roma Papası Fransisk 2016-cı ildə Azərbaycana səfəri zamanı dini tolerantlığa görə ölkəmizi dünyaya nümunə kimi qiymətləndirmişdir. Belə ki, multikultural və çoxkonfessiyalı ölkə olan Azərbaycanda bütün xalqların və dinlərin nümayəndələri əsrlər boyu dinc yaşayır və qurub-yaradırlar.

Həmişə haqq iş tərəfində olan Azərbaycanda Allahın köməyi ilə, insan sevən xalqımızın rifahını yaxşılaşdırmaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatımız sürətlə inkişaf edib. Belə ki, son 17 ildə ümumi daxili məhsul 3 dəfə, qeyri-neft sektoru 2,9 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,4 dəfə artıb. Yoxsulluq 49%-dən 5%-ə enib. Dövlət büdcəsinin gəliri 20 dəfə, əhalinin normal gəliri 9,9 dəfə artıb. Bəli, budur, Allahın gözəl bəndələrinə xoş münasibəti.

Qonşularına qarşı torpaq iddiasında olan və bu səbəbdən sərhədləri bağlı olan, aclıq və səfalət içərisində boğulan Ermənistanın bütün bölgələrindən isə əhali qaçır. Son bir ildə təkcə Zəngəzur (Sünik) əhalisinin sayı təxminən 1300 nəfər azalıb. Bu azalma Tavuş bölgəsində 800 nəfər, Lori bölgəsində 700 nəfər, Şirakda 400 nəfər, Geqarkunikdə 300 nəfər və s. təşkil edib.

Allahsızlıqları davam etsə, 3 milyondan az əhalisi olan monoetnik Ermənistan tam boşalacaq. Allahsevənlər məskəni olan Azərbaycanda isə əhalinin sayında artım davam edir və 10 milyondan çox müsəlman, xristian, yəhudi, bəhai, hinduist və s. dinlərə inanan, mehriban və tolerant şəraitdə yaşayan vətəndaşımız var. Azərbaycan dövlət büdcəsinin çox hissəsini əhalinin rifahının yaxşılaşdırılmasına sərf edir. Ermənistan isə 2020-ci ildə hərbi büdcəsinin 50%-ni, rəsmi valyuta ehtiyatlarının 15%-ni və ya dövlət büdcəsinin 10%-ni Azərbaycanın işğal olunmuş ərazilərinin minalanmasına xərcləyib. Mütəxəssislərin hesablamasına görə, Ermənistanın basdırdığı minaların ümumi dəyəri 340 milyon ABŞ dolları civarındadır. İstehkamçıların hesablamalarına görə, işğaldan azad olunmuş ərazilərə təxminən 4,5 milyon mina basdırıla bilər. Hansı ki, bu minaların cüzi bir qismindən 100-dən çox günahsız Azərbaycan vətəndaşı həyatını və ya sağlamlığını itirib. Halbuki ermənilər normal psixologiyaya sahib olsaydılar, minalara xərclənən bu 340 milyon ABŞ dollarını normal yaşayışları üçün sərf edərdilər, nəinki günahsız azərbaycanlıların öldürülməsinə.

**Allah Böyükdür.** Baxmayaraq ki, işğaldan azad olunmuş ərazilərə basdırılmış minaların xəritəsini allahsız ermənilər Azərbaycan tərəfinə vermirlər, bu minalar da təmizlənəcək. İnşallah, azərbaycanlılar həmin ərazilərdə xoşbəxt və firavan yaşayacaqlar.

**Yekun.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, bizim atdığımız addımlar haqq işi idi. Allah da haqqı müdafiə etdi. Azərbaycan silahlı qüvvələri allahsız ermənilər tərəfindən, demək olar ki, tamamilə dağıdılmış 300-dən çox şəhər, qəsəbə və kəndi işğaldan azad etdi. Haqq olmayan işlərinə - allahsızlıqlarına görə Allah erməniləri cəzalandırıb və bu cür davam etsə, ermənilər həmişə Allah tərəfindən cəzalandırılacaqlar.

**Xülasə.** Erməni xalqına çağırış edib deyirik ki, azərbaycanlılar kimi Allahın yaratdığı bütün dinlərə və millətlərə qarşı tolerantlıq və sevgi göstərib, bir dəfə gəldiyin dünyada sülh və əmin-amanlıq şəraitində yaşamaq lazımdır. "Daşnaksütyun" kimi ekstremist-millətçi partiyaları, Silva Kaputikyan, Zori Balayan, Robert Köçəryan , Serj Sarkisyan və s. bu kimi yalançı millət sevərləri qəbul etməmək lazımdır.

**Son söz əvəzi.** Ümumiyyətlə, Allaha inam və Allah sevgisi, iman bütün insanlar və peşə sahiblərində olmalıdır. Həkim xəstəni heç nədən asılı olmayaraq, düzgün müalicə etməlidir, müəllim şagird və tələbələrə yüksək səviyyəli təhsil verməlidir, hakim mühakimə olunan haqqında düzgün qərar çıxarmalıdır, jurnalist ancaq həqiqəti yazmalıdır, inşaatçı tikintini standart qaydaqanun üzrə aparmalıdır və s. Belə olmadıqda bu da allahsızlıqdır və həmin insanlar gec-tez Allah tərəfindən cəzalandırılacaqlar. Mütləq. Buna şübhəniz olmasın. Odur ki, nə ediriksə edək, qarşıdakı insanların yerinə özümüzü və ya ən yaxın adamımızı qoyaq. Özümüzə nə layiq biliriksə, onlara da onu layiq bilək.

**Elçin BİLALOĞLU**

# "VƏTƏNPƏRVƏRLİK NÜMUNƏSİ: QAZİLİK VƏ ŞƏHİDLİK"

*Aprel ayı ərzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələrinin təşkilatçılığı ilə "Vətənpərvərlik nümunəsi: qazilik və şəhidlik" mövzusunda tədbirlər keçirilib. Video-formatda baş tutan tədbirlərə şəhidlərin ailə üzvləri və qazilər də qoşulublar.*



**6 aprel** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir şəhərində; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonunda;

**13 aprel** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə;

**16 aprel** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Quba Rayon İcra Hakimiyyəti (RİH), "Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin Quba rayon təşkilatı və Qafqaz Müsəlmanları İdarəsinin Quba, Xaçmaz və Qusar rayonları üzrə qazılığının dəstəyi ilə; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz rayon Gənclər və İdman İdarəsi, rayon Təhsil Şöbəsi və rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə Oğuz rayonunda;

**21 aprel** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyan rayonunda keçirilən onlayn tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşları, QHT nümayəndələri, dini icma üzvləri, din xadimləri və gənclər iştirak ediblər.

Tədbirlərdə əvvəlcə Vətənimizin suverenliyi, bütövlüyü və azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışlar zamanı keçirilən belə tədbirlərin gənclərimizə Vətənə sevgi hisslərinin aşılanması, onlar arasında milli vətənpərvərlik ruhunun təbliğ olunması baxımından əhəmiyyətli rola malik olduğu qeyd edilib. 44 gün davam edən Vətən müharibəsinin qüdrətli Azərbaycanın bütün dünyada özünütəsdiqi kimi qəbul edildiyi vurğulanıb. Tədbir iştirakçıları döyüşlərdə göstərilən şücaətlərdən danışıb, Vətənimiz uğrunda vuruşmuş bütün qəhrəmanlarımızla qürur duyduqlarını bildiriblər.

Qeyd olunub ki, müstəqilliyə və ərazi bütövlüyümüzə gedən yolda ağır itkilər vermişik, ancaq heç zaman mübarizə ruhumuzu itirməmişik. Savaş meydanında əldə etdiyimiz tarixi qələbənin ardınca Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir. Eyni zamanda, natiqlər dövlətimizin şəhid ailələrinə və qazilərimizə diqqət və qayğısından danışıblar. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" Fərmanın imzalanması bu qayğının bariz nümunəsidir.

Şəhid ailələrinin üzvləri və qazilər də çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə razılıqlarını dilə gətiriblər.

# BÖLGƏLƏRDƏ APREL DÖYÜŞLƏRİNİN İLDÖNÜMÜ QEYD OLUNUB

*Aprel döyüşlərinin 5-ci ildönümü ilə əlaqədar bölgələrdə anım tədbirləri keçirilib. Bu qəbildən olan tədbirlər:*




**5 aprel** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Şəki bölgəsi üzrə şöbəsinin, Oğuz rayon Gənclər İdman İdarəsinin, Oğuz rayon Mərkəzi Kitabxanasının və Oğuz rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Aprel döyüşləri – böyük zəfərin başlanğıcı" mövzusunda;

**7 aprel** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran şəhər və Astara rayon Gənclər və İdman İdarələrinin birgə təşkilatçılığı ilə "Aprel savaşı – böyük zəfərin müqəddiməsi" mövzusunda;

**8 aprel** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qəbələ rayonunda "Aprel döyüşləri – böyük zəfərin başlanğıcı" mövzusunda;

**9 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı rayon Gənclər və İdman İdarəsi, Saatlı Gənclər Evi sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Aprel savaşı – böyük zəfərin müqəddiməsi" mövzusunda videokonfrans şəklində baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşları, şəhid ailələrinin üzvləri, qazilər, veteranlar, dini icma sədrləri və din xadimləri, həmçinin rayon gənclərinin iştirakı ilə baş tutan tədbirlərdə şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Çıxışlar zamanı qeyd olunub ki, 2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqelərinin və yaşayış məntəqələrimizin Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalması əks-həmlə ilə düşmən təxribatının qarşısını almaq məqsədilə Ordumuzun bölmələrini hərəkətə keçirib. Bu hadisə Aprel döyüşləri kimi tarixə keçib. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini nümayiş etdirib.

Natiqlər vurğulayıblar ki, 2016-cı ilin aprel ayında və 2020-ci ilin sentyabrın 27-dən başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə düşmən üzərində parlaq qələbə qazanaraq torpaqlarımız geri alınıb, bu qələbələr şəhidlərimizin qanı və qazilərimizin igidliyi hesabına əldə olunub.

# SÖZÜN ŞƏNİNƏ VƏ ŞÖHRƏTİNƏ DAHİLƏRİN MÜNASİBƏTİ

"Söz qılıncdan kəsərlidir". "Sözü söz kəsər". "Söz insanın vuran əlidir". "Sözün başı axırından bilinər". "Sözü sözdən alarlar".

Bütün bu atalar məsəllərini çəkməkdə məqsədim sözün nə qədər böyük qüvvəyə malik olduğunu göstərməkdir. Söz Allahın qeyb xəzinəsindən insana bəxş edilmiş müqəddəs bir nemətdir. Söz insanın canıdır. Sözün canı mənadır. Mənanın canı həqiqətdir. Həqiqətin canı düzlükdür. Düzlüyün canı gözəllikdir. Bütün bunlar ilahi bir nemət və hikmətdir.

Söz həm də ikibaşlı məfhumdur. Dini cəhətdən yanaşanlar sözün bir başına "haqq", o biri başına "batin" dedilər. Hüquqi cəhətdən yanaşanlar sözün bir başına "hə", o biri başına "yox" dedilər. Ədəbiyyatçılar sözün bir başına "düz", o biri başına "yalan" dedilər.

Sözlə bağlı ayrı-ayrı şair və yazıçıların da müxtəlif yanaşmaları var. Burada iki dahi şairimizin sözün düzlük məqamına münasibətini göstərmək istəyirəm.

***Məhəmməd Füzulinin münasibəti***

Hər şeydən üstündür sözün məqamı,
Hər yerdə sevərlər sahib-kəlamı.
Sözün vəsfi mənim hünərim deyil.
Sözün qiymətinə söz yox, yəqin bil.

Gözəl yaranmışdır söz əzəl başdan,
Düzlükdür ondakı hüsnü artıran.
Düzlüklə artmışdır sözün qiyməti,
Düzlükdür hər şeyin, ilk məziyyəti.

***

Sözün şəni o əndazə böyükdür ki, müəllimlər,
Sözün məhsulu bilmişlər duanı, vəfyi Quranı.
Sən ey söz dilbərinə zinətü-ziyvər verən insan,
Libasi mərifətdən qılma gəl məhrum etmə o cananı.

Göründüyü kimi, sözlə bağlı bu misralarda şair öz daxili imkanlarından istifadə etməklə poetik-fəlsəfi ağırlıq yaradır. Sözü quru fakt kimi deyil, cilalanmış şəkildə oxucuya təqdim edir.

***Sözün yalanına Səməd Vurğunun yanaşması***

Nahaqq söz od vurar qəlbə, fəqət haqq söz keçər daşdan,
Ucuz söz qan qaraldar ki, küsərsən dostla sirdaşdan.
Fəlakətlər doğurmuşdur riyalar, bir də böhtanlar.
Yalan sözdən həyat ummuş həyasız, qansız insanlar...

***

Qananlar məclisindən keç ki, feyz al sözlə söhbətdən,
Fəqət qanmazlar ağzında düşər loğman da qiymətdən.

Sözlə bağlı internetdən və televiziyadan eşitdiyim məfhumlardan biri "azad söz", o biri "sadə həqiqətlər"dir. Bunlara münasibətimi bildirmək istəyirəm.

Söz ikibaşlı məfhum olduğuna görə belə bir deyim var: söz var deyərlər, söz var deməzlər. Söz fitrətindən azad deyildir. Buna görə də "Azad söz" məfhumu özlüyündə yanlışdır. Ona görə ki, bu cəmiyyətdə cinayət, ilahi dərgahda günahdır. Bu, ona görə belədir ki, söz müqəddəsdir.

"Sadə həqiqətlər" ifadəsinə gəlincə, düşünürəm ki, həqiqətin sadəsi və yaxud da mürəkkəbi ola bilməz. Həqiqətin ancaq əsli ola bilər və bu, belə də olmalıdır.

Deyirlər ki, sözün tanıyan özün tanıyar.
Söz mənanı çatdırmaq üçün yaranmışdır.

**Zabit Qarayev**

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini aprel ayı ərzində də davam etdirmişdir. Pandemiya ilə əlaqədar Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən videokonfrans formatında maarifləndirmə tədbirləri keçirilmişdir. Cari ay ərzində bu qəbildən olan maarifləndirmə tədbirləri:*

**2 aprel** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda;

**7 aprel** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Biləsuvar rayonunda;

**12 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarında; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şirvan şəhəri, Salyan və Hacıqabul rayonlarında;

**13 aprel** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran, Astara və Lerik rayonlarında;

**15 aprel** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin və Yeni Azərbaycan Partiyasının (YAP) Yevlax rayon təşkilatının birgə təşkilatçılığı ilə “Dini radikalizm, ekstremizm və narkomaniya milli təhlükəsizliyimizə təhdiddir” mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rəhim Tağıyev adına Masallı Rayon Tarix Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə “Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi” mövzusunda;

**16 aprel** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Biləsuvar rayon Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə “Gənclər arasında erkən nikah hallarına qarşı mübarizə” mövzusunda;

**20 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı Rayon İcra Hakimiyyəti (RİH), Uşaq və Ailələrə Dəstək Mərkəzi, rayon Təhsil Şöbəsi (TŞ), GİI, Saatlı “Gənclər Evi” sosial xidmət müəssisəsinin dəstəyi ilə “Erkən nikah problemi və ona qarşı mübarizə yolları” mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab rayonu Uşaq və Ailələrə Dəstək Mərkəzi, Heydər Əliyev Mərkəzi və YAP Zərdab rayon təşkilatının birgə təşkilatçılığı ilə “Erkən nikah, gender siyasəti və qadın hüquqları” mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Erkən nikah problemi və ona qarşı mübarizə yolları” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran şəhər TŞ-nin birgə təşkilatçılığı ilə “Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti” mövzusunda;

**22 aprel** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Radikal və ekstremist təmayüllü dini cərəyanları mahiyyəti və gənclərə psixoloji təsir üsulları” mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz rayon GİI, rayon TŞ və rayon Mərkəzi





Kitabxanasının birgə təşkilatçılığı ilə “Narkomaniyaya yox deyək!” mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı rayon Polis Şöbəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin İsmayıllı nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Narkomaniya – ümumbəşəri bəla” mövzusunda;

**23 aprel** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşəbbüsü, bölgənin Gənclər və İdman idarələrinin iştirakı ilə “Azərbaycan gəncliyi: vətənpərvərlik, dövlətçilik bir amal kimi” mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar rayon TŞ və Biləsuvar rayon GİI-nin birgə təşkilatçılığı ilə “Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə” mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və rayon TŞ-nin birgə təşkilatçılığı ilə “Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər” mövzusunda;

**27 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı RİH, Uşaq və Ailələrə Dəstək Mərkəzi, rayon GİI, rayon TŞ və “Gənclər Evi” sosial xidməti müəssisəsinin dəstəyi ilə “Narkomaniya-ümumbəşəri bəla” mövzusunda;

**28 aprel** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Şamaxı RİH və QMİ-nin Şamaxı bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə “Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri” mövzusunda baş tutmuşdur.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin və şagirdlərin iştirakı ilə keçirilən video-konfranslar zamanı bölgələrdəki dini durum müzakirə olunmuş, Ramazan ayı, karantin dövrü olduğu üçün bu ayda din xadimlərinin üzərinə düşən vəzifələr, cari dövrdə yas mərasimlərinə qoyulan bəzi məhdudiyyətlər və digər ümumi məsələlərlə bağlı fikirlər səsləndirilmişdir. Din xadimlərinin pandemiya dövründə, əsasən, dəfn və yas mərasimlərində Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl edilməsinin vacibliyi vurğulanmışdır.

Çıxışlar zamanı gənc nəslin mənəvi dəyərlərə bağlılıq ruhunda yetişdirilməsinin vacibliyindən danışılmışdır. Bildirilmişdir ki, məktəblilərin mənəvi cəhətdən yetişməsi üçün çoxsaylı tədbirlər keçirilməli, onlarla fərdi iş aparılmalıdır. Qeyd olunmuşdur ki, Azərbaycan dövləti mənəvi dəyərlərin təbliğ olunması və ənənəvi dini baxışlarımızın qorunub saxlanması sahəsində layihələr icra etməkdədir.

Həmçinin cəmiyyətimizdə erkən nikahların yaratdığı mənəvi, sosial və hüquqi zərərlər haqqında danışılmışdır. Bu istiqamətdə bölgələrdə maarifləndirmə işlərinin daha intensiv aparılmasının vacibliyi, din xadimlərinin məsələyə həssas yanaşmalı olduğu və onların üzərinə müəyyən vəzifələrin düşdüyü nəzərə çatdırılmışdır.

Tədbirlərdə ölkəmizdə mövcud olan nümunəvi dövlət-din münasibətləri haqqında ətraflı məlumat verilmiş, bu günün gənclərinin gələcək nəslin davamçıları olaraq dini radikalizm və dini ekstremizm barəsində məlumatlı olmasının vacibliyi vurğulanmışdır. Qeyd edilmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanlar qardaşlıq, dostluq və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Multikulturalizmin xalqımızın həyat tərzini təşkil etdiyini vurğulayan natiqlər məzhəbçilik və dini təəssübkeşlik meyillərinin multikultural cəmiyyət üçün yad olduğunu bildirmişlər.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan video-konfranslar qarşılıqlı diskussiya şəklində baş tutmuşdur.

Çıxış edənlər öz təkliflərini səsləndirmişlər.

Tədbirlərin sonunda isə iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

# ROMA PAPASI PASXA BAYRAMI TƏBRİKİNDƏ PANDEMİYA İLƏ MÜBARİZƏDƏ HƏMRƏYLİYƏ ÇAĞIRIŞ EDİB

Xristian aləminin ən ali bayramı – Müqəddəs Pasxa bayramı günündə Roma Papası I Fransisk ənənəvi “Urbi et Orbi” (“Şəhərə və yer kürəsinə”) bayram xeyir-duasını artıq ikinci ildir ki, möminlərin iştirakı olmadan oxuyub.

Vatikanda hər il, adətən, on minlərlə insanın toplaşdığı Müqəddəs Pyotr meydanına pandemiya səbəbindən giriş bağlı olub. I Fransisk çıxışında koronavirus pandemiyasının hələ də bütün dünyada tüğyan etdiyini bildirib və insanları ruhdan düşməməyə çağırıb.

Pontifik qeyd edib ki, bütün dünyanı bürüyən koronavirus böhranı xüsusilə yoxsullar üçün ağır keçir. Dünyada qlobal böhranın mövcud olmasına baxmayaraq, münaqişələr də sona çatmır. O, bütün böhran ocaqları üçün sülh arzulayıb.

Papa çıxışında, həmçinin bildirib ki, pandemiya üzərində qələbə qazana bilmək üçün ən təsirli vasitə peyvənddir: “...beynəlxalq ictimaiyyəti peyvənd təminatında yaranmış ləngimələri birgə səylər nəticəsində aradan qaldırmağa və xüsusilə, yoxsul ölkələr üçün həmrəylik əsasında peyvəndlərin paylanmasına dəstək göstərməyə çağırıram”.

Roma Papası çıxışında Myanma, Suriya, Yəmən və Liviyada, eləcə də dünyanın digər böhran ocaqlarında münaqişə və insan ölümlərinə son qoyulması, İsrail övladları ilə fələstinlilər arasında dialoq vasitəsilə sabit həll yolunun tapılması üçün dua edib.



# AZƏRBAYCAN İLK DƏFƏ MÜSƏLMAN İNCƏSƏNƏT VƏ MƏDƏNİYYƏT FESTİVALINDA TƏMSİL OLUNUB

Bu il Müsəlman incəsənət və mədəniyyət festivalı ilk dəfə beynəlxalq miqyasda təşkil olunub və ölkəmiz Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi ilə həmin tədbirdə təmsil olunub.

Festival islamofobiya ilə mübarizə, həmçinin müsəlman və qeyri-müsəlman icmaların bir araya gətirilməsi məqsədilə keçirilib. MACFEST-in qurucusu və icraçı direktoru Qaisra Şahrazın ev sahibliyi ilə baş tutan festivalda BBC-nin məşhur jurnalistləri, keçmiş diplomatlar iştirak ediblər. Bu mötəbər tədbirdə ölkəmizi müxtəlif sahələr və qurumlardan səlahiyyətli şəxslər, tanınmış mədəniyyət və incəsənət xadimləri təmsil ediblər.

Videoformatda baş tutan tədbir iştirakçılarına ölkəmizdəki xristian (Alban) və müsəlman tarixi abidələrinə aid videoçarx təqdim edilib, dini abidələrin tarixi ilə



bağlı ətraflı məlumat verilib. Festivalda, həmçinin Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhəri haqqında geniş informasiya çatdırılıb, milli mətbəximiz, milli geyimlərimiz, Qarabağ atları haqqında videomateriallar nümayiş olunub, milli mədəniyyətimizin tarixində özünəməxsus yeri olan xalçaçılığımız barədə ətraflı məlumat verilib.

Beynəlxalq festivalda Azərbaycanın təbii və tarixi gözəlliklərini əks etdirən videoçarxlar da nümayiş olunub.

Tədbirin sonunda Azərbaycanın milli musiqi nümunələri səsləndirilib.

Festivalda Azərbaycanın iştirak layihəsinin müəllifi Mançester Universitetinin məzunu Leyla Qasımova olub.

# ZƏVVARLARIN TƏHLÜKƏSİZLİYİNƏ İLK DƏFƏ QADIN POLİSLƏR NƏZARƏT EDİR

Səudiyyə Ərəbistanında Ümrə ziyarətinə gələnlərin təhlükəsizliyinə ilk dəfə olaraq qadın polislər nəzarət edir.



SPA informasiya agentliyi xəbər verir ki, Krallıqda həyata keçirilən islahatlar çərçivəsində hüquq-mühafizə orqanlarında işə götürülən zərif cinsin nümayəndələri Ramazan ayında Məkkə və Mədinədə müqəddəs məscidlərin ətrafında xidməti vəzifələrini yerinə yetirirlər.

Polis zabitləri ilə yanaşı, Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanın təşəbbüsü ilə həyata keçirilən 2030-cu ilədək İslahatlar Proqramında qadınların hərbi xidmətə götürülməsi də geniş vüsət alıb. Artıq gənc qızlar Krallığın hərbi dəniz, quru, hava və raket qoşunlarında xidmət edə bilirlər.

# PEYĞƏMBƏR MƏSCİDİNDƏ SOSİAL MƏSAFƏ SAXLANILMAQLA İLK TƏRAVİH NAMAZI QILINIB

Mədinə şəhərindəki Peyğəmbər məscidində Ramazan ayının ilk təravih namazı qılınıb.

Səudiyyə Ərəbistanının rəsmi SPA agentliyinin verdiyi xəbərə görə, ibadətə gələn məhdud sayda zəvvar axşam saatlarında cəmi 30 dəqiqəlik açıq olan müqəddəs məsciddə sosial məsafə saxlamaqla ibadət ediblər.

Krallığın Həcc və Ümrə Nazirliyi bildirib ki, Ramazan ayı boyunca iftardan sonra məsciddə ibadət sosial məsafə və COVID-19 pandemiyasına qarşı digər profilaktik qaydalara uyğun şəkildə davam edəcək. Səudiyyə Kralının göstərişinə əsasən, zəvvarlar əvvəl ayrı-ayrılıqda qılınan təravih, qiyam və isha namazlarını vahid şəkildə qılacaqlar.



Pandemiya ilə əlaqədar məhdud sayda qəbul edilən əcnəbi zəvvarların qaldıqları məkanlarda da ciddi profilaktik tədbirlər görülüb. Ramazan ayında Məkkə və Mədinədə müqəddəs məscidlərə giriş xüsusi icazə vərəqi ilə mümkün olacaq, qaydaları pozanlara qarşı isə cərimələr tətbiq ediləcək.

# ƏRƏB ÖLKƏLƏRİNDƏ RAMAZAN AYI İLƏ ƏLAQƏDAR YENİ MƏHDUDİYYƏTLƏR TƏTBİQ EDİLİB

Ərəb ölkələrinin hökumətləri tərəfindən müqəddəs Ramazan ayında COVID-19 pandemiyası ilə əlaqədar yeni məhdudiyyətlərin siyahısı açıqlanıb.

Məsələn, Misirdə axşam saatlarında kütləvi iftar süfrələrinin açılması, insanların bir yerə toplaşması qadağandır. Bundan başqa, məscidlərdə təravih namazı vaxtı sosial məsafənin qorunması, habelə qoruyucu maskalardan istifadəyə nəzarət gücləndirilib. Misirdə dindarların adətən 10 gün ərzində ibadət etmək üçün vaxtlarını məscidlərdə keçirmələri də qadağan edilib. Misirin Baş naziri Mustafa Mədbuli bildirib ki, əhalinin epidemiyadan qorunması məqsədilə məscidlərdə yas mərasimlərinin keçirilməsinə də icazə verilməyəcək.



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində kollektiv iftar süfrələri qadağan edilib. Əmirliyin hökuməti məscidlərdə təravih namazının müddətini 30 dəqiqəyə qədər azaldıb. Bundan sonra ibadət ocaqları dərhal bağlanacaq. Əbu-Dabi və digər şəhərlərdə də məhdudiyyətlər tətbiq edilib.

Kütləvi iftar süfrələri Səudiyyə Ərəbistanında da qadağandır. Ümrə ziyarəti üçün Krallığa gələn zəvvarların COVID-19 əleyhinə vaksin vurdurması və testdən keçməsinə xüsusi nəzarət olunur. İki müqəddəs məsciddə təravih namazı qılınması vaxtı da 30 dəqiqə müəyyən edilib, eyni zamanda, qaydaları pozan və məscidlərə icazə sənədi olmadan daxil olan zəvvarlara cərimələr tətbiq ediləcək.

İordaniya hökuməti Ramazan ayında pandemiya əleyhinə tədbirlərin həyata keçirilməsinə iki ay öncə başlayıb. Krallığın ərazisində axşam saat 19-dan səhər 6-dək küçəyə çıxmaq qadağandır. İordaniyada da kütləvi iftar süfrələrinin təşkilinə icazə verilmir. Bu ölkədə pandemiya ilə vəziyyətin daha ağır olması səbəbindən məscidlərə toplaşmaq və kollektiv ibadətə də qadağa qoyulub.

Küveytdə də Ramazan ayı boyunca axşam saatlarında küçəyə çıxmaq qadağası tətbiq edilib. Bu ölkənin pandemiya ilə mübarizə üzrə ali şurasının rəhbəri Xalid əl-Cərallah bildirib ki, sərt karantin rejimi, habelə iftar süfrələrinin qadağan edilməsi və məscidlərdə təravih namazının vaxtının məhdudlaşdırılması Ramazan bayramı günlərində də davam edəcək. Bu ölkədəki restoranlar isə sifarişləri evlərə çatdıracaq və supermarketlər səhər saat 6-dan axşam 8-dək işləyəcək.

Omanda da Ramazan ayında sərt karantin rejimi davam edəcək. Rəsmi ONA xəbər agentliyi məlumat yayıb ki, kommersiya obyektlərinin, o cümlədən kafe və restoranların fəaliyyəti axşam saat 20-dən səhər 7-dək dayandırılır. Bundan başqa, digər ərəb ölkələrində olduğu kimi, Sultanlığın ərazisində də kollektiv iftar süfrələri qadağan edilir, həmçinin axşam saatlarında məscidlərdə toplaşmağa icazə verilmir. Oman hökuməti ölkəyə girişə də məhdudiyyət qoyub. Belə ki, Ramazan ayında hava, dəniz və quru yolu ilə Omana yalnız ölkə vətəndaşları və burada müvəqqəti yaşamaq hüququ olanlar gələ biləcəklər.

# QRİQORİAN TƏQVİMİNƏ ƏSASLANAN XRİSTİANLAR PASXANI QEYD EDİBLƏR

Katoliklər, protestantlar və Pravoslav Kilsəsinin bəzi nümayəndələri aprelin 4-də Pasxa bayramını qeyd ediblər.

Pasxa İsanın çarmıxa çəkilməsindən üç gün sonra dirilməsi münasibətilə qeyd olunur. "Pasxa" sözü yəhudilərin Misir əsarətindən azad olmaları münasibətilə qeyd etdikləri Pesax bayramının adından gəlir. Əslində isə bayramın kökü Xristianlıqdan çox əvvəlki dövrlərə gedib çıxır və qədim Şərqdə də ehtiram edilən ölüb, yenidən dirilən bitki tanrıları kultu ilə əlaqəlidir. Qərbdə "Easter" adı verilən bu bayram təbiətin oyandığı vaxtda qeyd edilir. Pasxanın əsas atributları boyanmış yumurtalar və onları gətirən dovşanlardır. Bu atributlar da Pasxanın qədim məhsuldarlıq ayinləri ilə bağlılığını göstərir. Belə ki, məhsuldarlıq simvolu olan dovşanlar avropalıların və Yaxın Şərqin bütpərəst bahar bayramlarından və qədim mərasimlərindən günümüzədək gəlib çatmışdır. Bir mifoloji lüğətə əsasən, Pasxa dovşanının gətirdiyi güman edilən Pasxa yumurtalarını ovlamaq adəti sadəcə uşaq oyunu yox, məhsuldarlıq ayininin izləridir. Bəzi mədəniyyətlərdə inanırlar ki, bəzədilmiş Pasxa yumurtaları "sehirli şəkildə xoşbəxtlik, firavanlıq, sağlamlıq və təhlükəsizlik bəxş edə bilər". Belə fərziyyə var ki, Kilsə hələ təzə-təzə yaranarkən bütpərəstlərin qədim adət-ənənələrini mənimsəyib, onlara məsihçi donu geyindirmişdir.

İkinci ildir ki, bayram pandemiya ilə əlaqədar bir sıra məhdudiyyətlər fonunda qeyd olunur. Bu yaxınlarda pandemiyanın üçüncü dalğası ilə qarşılaşan bəzi Avropa ölkələrində məhdudlaşdırıcı tədbirlərə görə bir çox ailə bayramı hamılıqla eyni masa arxasında qeyd edə bilmədi.

Məsələn, İspaniyada davam edən fövqəladə rejim və komendant saatı səbəbindən ölkə sakinləri Pasxada digər bölgələrdəki qohumlarını ziyarət edə bilməyiblər. Almaniya kansleri Angela Merkel xəstəliyin artmasının qarşısını almaq üçün vətəndaşlara video-müraciət ünvanlayaraq "Təcili olmayan bütün səyahətlərdən çəkinməyinizi xahiş edirəm", - deyib.

ABŞ-da kilsələrə getmək qaydaları əyalətdən-əyalətə fərqlənir. Məsələn, Kaliforniyada maska taxmadan ibadətə getməyə icazə var, Missuridə ibadət yerlərinə maksimum 35% ziyarətçinin gəlməsinə icazə verilir, San-Fransiskoda isə ibadətə getmədən əvvəl onlayn yer tutmaq lazımdır.

Kanadada sakinlərə ayıq-sayıq olmaları və böyük qruplar halında toplaşmamaları tövsiyə olunub. "Qırmızı zona"da yerləşən Ottavada kilsələr açıq olsa da, 30%-dən çox prixojanı qəbul edə bilməz. Bununla belə, əksər kilsələr ibadətləri onlayn göstərəcəklərini elan ediblər.

Pravoslavlar isə bu il Pasxanı mayın 2-də qeyd edəcəklər.

# İTALİYADA KİNODAKI "ƏXLAQİ-DİNİ" SENZURAYA DAİR 1914-CÜ İL QANUNU LƏĞV OLUNUB




İtaliyada səlahiyyətli şəxslər tərəfindən filmlərə əxlaqi və dini meyarlara əsaslanan senzuranın tətbiqinə icazə verən 1914-cü il qanunu ləğv olunub. "The Guardian"-ın xəbərinə əsasən, bu barədə ölkənin mədəniyyət naziri Dario Françeskini açıqlama verib.

Bundan sonra italyan rəsmilərinin filmlərdən hər hansı səhnəni kəsmək və ya filmlərin yayımlanmasını qadağan etmək səlahiyyəti olmayacaq. Onlar yalnız tamaşaçıların yaş məhdudiyyətinin təsdiqlənməsinə nəzarət edəcəklər.

Yaş məhdudiyyəti (6, 14 və ya 18 yaşa qədər) rejissorların özləri tərəfindən müəyyən edilsə də, son qərarı Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən 49 nəfərlik xüsusi komissiya verəcək. Komissiyaya həm film sənayesi mütəxəssisləri, həm də pedaqoqlar, psixoloqlar, valideyn assosiasiyalarının nümayəndələri və heyvan haqları müdafiəçiləri daxil olacaqdır.

# CƏNUBİ KOREYADA ÖZÜNÜTƏCRİD ÜÇÜN "İBADƏT KAPSULLARI"NDAN İSTİFADƏ OLUNUR



Cənubi Koreyanın Tequ şəhərində yerləşən buddist məbədində pandemiya şəraitində dini ayinlərdə iştirak edənlərin izolyasiyası məqsədilə "ibadət kapsulları"ndan istifadə olunur.

Məbədə gələn hər bir adamın üzərində adının yazıldığı fərdi şəffaf çadırı var. Bundan başqa, ziyarətçilərin sayının nəzarətdə saxlanılması üçün xüsusi qeydiyyat sistemi fəaliyyət göstərir.

İstirahət günləri dini ayinlər açıq havada keçirildiyindən, "kapsullar" təkcə virusdan deyil, həm də küləkdən qoruyur. Belə ki, buddist məbəd dəniz səviyyəsindən 1000 metr yüksəklikdə yerləşir.

"Kapsullar" hər ayindən sonra dezinfeksiya olunur. Buddist icmasının vitse-prezidenti Pak Cenq-e bildirib ki, onlar çadırlarda özlərini təhlükəsizlikdə və rahat hiss edirlər.

# MİLANDA MƏDƏNİYYƏT LAYİHƏSİ: "DANTE BAŞ KİLSƏDƏ"



Bu ilin may ayı ərzində Milan Kafedralının baş qurbangahında (altar) Dante Aligyerinin "İlahi Komediya"sı bütünlüklə oxunacaqdır. Mədəni layihə Dantenin ölümünün 700-cü ildönümünə həsr olunub.

Bu qeyri-adi tədbirin ideya müəllifi Milan Kafedralının protopresviteri (baş keşiş) monsenyor Canantonio Borqonovo və kafedralın presviterlər (keşiş, pastor) kollegiyasıdır. Tədbirin həyata keçirilməsinə Ambrosiana Kitabxanası və kilsənin mədəni irsinin qorunması və təbliği ilə məşğul olan Milan Kafedralının Möhtərəm Fabriki adlı təşkilat yardım ediblər.

"İlahi Komediya" La Skala teatrının orkestr sənətçiləri tərəfindən musiqinin müşayiəti ilə oxunacaqdır. Layihədə Milan Kiçik Teatrının tələbələri də iştirak edəcəklər.

Təşkilatçılar ümid edirlər ki, bu mühüm tədbir pandemiyanın yaratdığı uzun fasilədən sonra şəhərin mədəni dirçəlişinə təkan verəcəkdir.

# TAKSİM MEYDANINDA İNŞA EDİLƏN MƏSCİD RAMAZAN BAYRAMINADƏK İBADƏTƏ AÇILACAQ



Təməli 2017-ci ilin fevralında qoyulan və Türkiyənin ən böyük ibadət mərkəzlərindən biri olacaq İstanbulun Taksim məscidi Ramazan ayının son cümə günü ibadətə açılacaq.

Eyni anda 2500 nəfərin ibadət edə biləcəyi bu məscidin memarları Şefik Birkiye və Selim Dalamandır.

Ümumilikdə 16 min 500 kvadratmetrlik ərazidə inşa olunan, qapalı hissəsi təxminən 2482 kvadratmetr sahəni əhatə edən məscidin hündürlüyü 61 metrdir. Artıq son tamamlama işləri aparılan bu məscid-kompleksin daxilində konfrans və sərgi salonları da fəaliyyət göstərəcək.

Qeyd edək ki, 2020-ci ildə istifadəyə verilməsi planlaşdırılan məscidin inşasının tamamlanması işləri COVID-19 pandemiyası səbəbindən gecikib.

CƏMİYYƏT və DİN
№ 04 (354) APREL 2021-ci il

# ƏN GÜCLÜ "iPHONE" MODELLƏRİ AÇIQLANIB



Qabaqcıl "iPhone 12 Pro Max" smartfonu "Apple" şirkətinin ən güclü qurğular reytinqində altıncı yeri tutub.

2021-ci ilin martı üçün məhsuldarlıq testinin nəticələrinə görə, ən güclü "Apple" mobil qurğuları reytinqinin birinci pilləsində 12,9 düymlük üçüncü nəsil "iPad Pro" planşeti qərarlaşıb. Planşet 727 min bal toplayıb. İkinci və üçüncü mövqelərdə "iPad Pro" planşetinin müvafiq olaraq 4717 və 712 min xal qazanan 12,9 və 11 düymlük versiyaları yer alıb.

Reytinq tərtibatçıları tərəfindən ən güclü smartfon "iPhone 12 Pro Max" seçilib.

Mütəxəssislər qeyd ediblər ki, yeddinci pilləyə gözlənilmədən "iPhone 12 mini" – aktual seriyada ən ucuz "Apple" smartfonu yüksəlib. İlk onluğu "iPhone 12", "iPhone 12 Pro" və "iPhone 11 Pro Max" modelləri tamamlayıb.

# NASA MARSDA OKSİGEN YARADIB

ABŞ Milli Aeronavtika və Kosmik Fəzanın Tədqiqatı İdarəsi (NASA) Marsda yeriyən "Perseverance" adlı qurğunun köməyi ilə bu planetin səthində karbon qazından oksigeni ayırmağa nail olub.

"Moxie – Mars Oxygen In-situ Resource Utilization Experiment" adlanan qurğu 5 qram oksigen istehsal edib. Bu qədər oksigen astronavtın Marsda təqribən 10 dəqiqə nəfəs ala bilməsi üçün kifayətdir.

NASA-da belə hesab edirlər ki, gələcəkdə Marsa uçan insanlar özləri ilə çoxlu oksigen yox, yeni qurğunun böyüdülmüş versiyasını götürəcəklər. Oksigen raketin kimyəvi tərkibinin ayrılmaz hissəsidir.

Məlum olduğu kimi, Mars atmosferində karbon qazı 96 faiz, oksigen isə cəmi 0,13 faiz təşkil edir.

Müqayisə üçün qeyd edək ki, Yer atmosferində oksigenin miqdarı 21 faizdir.

# ARXEOLOJİ ARTEFAKTLARIN SURƏTİNİ İSTEHSAL EDƏN FABRİK İŞƏ BAŞLAYIB

Qahirənin şərqində yerləşən Ubur qəsəbəsində Misir və Yaxın Şərqdə məşhur arxeoloji artefaktların surətini istehsal edən fabrik istifadəyə verilib.

Fabrikin açılışında iştirak edən Misirin turizm və qədim əşyalar naziri Xalid Ənani bu fabrikdə istehsal ediləcək hər bir artefaktın leqal surətinin xüsusi möhür daşıyacağını bildirib. Yaxın Şərq ölkələrinin də arxeoloji abidələrinin dublikatlarını istehsal edəcək bu müəssisənin məhsulları həm ölkə daxilində satışa çıxarılacaq, həm də xarici bazara göndəriləcək. Yüksək texnologiya və avadanlıqlarla təchiz edilmiş fabrikdə 150 rəssam və restavrasiya mütəxəssisi çalışır. Mütəxəssis qrupu mərmərin və daşın üzərində naxış salan robotlar, 2D və 3D formatında rəsm çəkən aparatlarla işləyir.

Turizm naziri qeyd edib ki, əsas məqsəd Misirə gələn turistlərə artefaktların daha keyfiyyətli dublikatlarını təqdim etməkdir. Onun sözlərinə görə, hazırda turizm məkanlarında satılan ehramların, fironların və sfinks heykəllərinin surətləri orijinala o qədər də yaxın deyil. Fabrikdə istehsal ediləcək məhsullar isə suvenir biznesinə yeni töhfədir. Onların hər birinin üzərində artefakt haqqında ingilis və ərəb dillərində məlumat, habelə barkod olacaq. Bahalı artefakt dublikatlarının alıcılarına nazirliyin sertifikatı da təqdim ediləcək.

## Bakı və Abşeron üzrə namaz vaxtları (May - 2021)

| Gün | İmsak vaxtı | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|---|
| 1 | 04:05 | 04:10 | 05:41 | 12:38 | 17:33 | 19:51 | 21:00 |
| 2 | 04:03 | 04:08 | 05:39 | 12:38 | 17:33 | 19:52 | 21:01 |
| 3 | 04:02 | 04:07 | 05:38 | 12:38 | 17:34 | 19:53 | 21:03 |
| 4 | 04:00 | 04:05 | 05:37 | 12:37 | 17:34 | 19:54 | 21:04 |
| 5 | 03:58 | 04:03 | 05:36 | 12:37 | 17:35 | 19:55 | 21:06 |
| 6 | 03:57 | 04:02 | 05:34 | 12:37 | 17:35 | 19:56 | 21:07 |
| 7 | 03:55 | 04:00 | 05:33 | 12:37 | 17:36 | 19:57 | 21:08 |
| 8 | 03:54 | 03:59 | 05:32 | 12:37 | 17:37 | 19:58 | 21:10 |
| 9 | 03:52 | 03:57 | 05:31 | 12:37 | 17:37 | 19:59 | 21:11 |
| 10 | 03:51 | 03:56 | 05:30 | 12:37 | 17:38 | 20:00 | 21:12 |
| 11 | 03:49 | 03:54 | 05:29 | 12:37 | 17:38 | 20:01 | 21:14 |
| 12 | 03:48 | 03:53 | 05:28 | 12:37 | 17:39 | 20:02 | 21:15 |
| 13 | | 03:51 | 05:27 | 12:37 | 17:39 | 20:03 | 21:17 |
| 14 | | 03:50 | 05:26 | 12:37 | 17:40 | 20:04 | 21:18 |
| 15 | | 03:48 | 05:25 | 12:37 | 17:40 | 20:05 | 21:19 |
| 16 | | 03:47 | 05:24 | 12:37 | 17:41 | 20:06 | 21:21 |
| 17 | | 03:46 | 05:23 | 12:37 | 17:42 | 20:07 | 21:22 |
| 18 | | 03:44 | 05:22 | 12:37 | 17:42 | 20:08 | 21:23 |
| 19 | | 03:43 | 05:21 | 12:37 | 17:43 | 20:09 | 21:25 |
| 20 | | 03:42 | 05:20 | 12:37 | 17:43 | 20:10 | 21:26 |
| 21 | | 03:40 | 05:20 | 12:37 | 17:44 | 20:11 | 21:27 |
| 22 | | 03:39 | 05:19 | 12:37 | 17:44 | 20:12 | 21:28 |
| 23 | | 03:38 | 05:18 | 12:37 | 17:45 | 20:13 | 21:30 |
| 24 | | 03:37 | 05:17 | 12:37 | 17:45 | 20:14 | 21:31 |
| 25 | | 03:36 | 05:17 | 12:37 | 17:46 | 20:15 | 21:32 |
| 26 | | 03:35 | 05:16 | 12:38 | 17:46 | 20:16 | 21:33 |
| 27 | | 03:34 | 05:15 | 12:38 | 17:47 | 20:17 | 21:34 |
| 28 | | 03:33 | 05:15 | 12:38 | 17:47 | 20:17 | 21:36 |
| 29 | | 03:32 | 05:14 | 12:38 | 17:48 | 20:18 | 21:37 |
| 30 | | 03:31 | 05:14 | 12:38 | 17:48 | 20:19 | 21:38 |
| 31 | | 03:30 | 05:13 | 12:38 | 17:49 | 20:20 | 21:39 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# İLİN FƏSİLLƏRİNƏ GÖRƏ DƏYİŞƏN BİNA



İsveçrədə amerikalı Doug Aitkenin layihəsi ilə tikilən, xarici və içərisi aynalarla örtülmüş qeyri-adi bina ətrafdakı dağ mənzərəsini əks etdirdiyinə görə "Miraj" adlanır.

Birmərtəbəli evin sehri binanın yuxarıdan aşağıya güzgülərlə örtülməsi səbəbindən baş verir.

Ev fəsillər boyunca ətrafdakı mənzərəyə uyğun dəyişərək qışda qışı, yayda isə yayı xarakterizə edir. Binaya giriş həmişə açıq olduğundan, bu füsunkar mənzərəyə yaxından baxmaq istəyən ziyarətçilər güzgü simvolunu araşdırmaqda sərbəstdirlər.

"Miraj"ın içi də kaleydoskop effekti yaradan güzgülərlə bəzədilib.

## Yadigar söz

**Lev Tolostoy**

*Söz böyük şeydir. Ona görə böyükdür ki, sözlə insanları birləşdirmək də olar, ayırmaq da, sözlə məhəbbət də qazanmaq olar, ədavət və düşmənçilik də.*

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası: Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51; Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70; Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40; Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97; Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84; Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95; Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59; Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00; Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30; Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23; İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Universal Poliqraf" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894